Bu bir xalq qəzetidi
ƏDALƏT

## Nə qədər düşmənimiz var, bu qılınc qınında qalmayacaq



**Adalet.az-ın məlumatına görə, Prezident İlham Əliyev yanvarın 13-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik Azərbaycan Prezidenti İlham Əliyevə Qələbə münasibətilə xatirə hədiyyəsi təqdim edib.**

## Mehriban Əliyeva Zəfər muzeyinin məzmununun hazırlanması ilə bağlı tapşırıq verdi



**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin məzmununun hazırlanması ilə bağlı onlayn görüş keçirilib.**

Mədəniyyət Nazirliyindən Adalet.az-a verilən məlumata görə, görüşdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 2020-ci il tarixli 2316 nömrəli Sərəncamının icrası ilə bağlı Nazirlik tərəfindən görülən işlər barədə məlumat verib. Eyni zamanda görüşdə qeyd olunub ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən Zəfər muzeyinin məzmununun hazırlanması və bununla bağlı İşçi qrupunun yaradılması Mədəniyyət Nazirliyinə həvalə edilib.

Qısa müddət ərzində tərtib edilmiş Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin konsepsiyası barədə görüş iştirakçıları arasında ilkin müzakirələr və fikir mübadiləsi aparılıb.

Həmçinin, Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin qurulması məqsədilə məzmun materiallarının toplanması üzrə Tədbirlər Planının ilkin layihəsi də görüşdə müzakirə edilib.

**Qeyd edək ki, bu yaxınlarda Nazirliyin nəzdində yaradılacaq daxili İşçi qrupunun görüşlərinin daha geniş tərkibdə keçirilməsi nəzərdə tutulur.**

## GÖYDƏ ALLAH, YERDƏ SAYIN ƏRDOĞAN QAPINI AÇSIN!



## SABAHIN GENERALI



**Online formada dərs zamanı müəllimləsi sual verib ki, sehirli fırçanız olsaydı, nə çəkərdiniz. Altı yaşlı Ərhunun cavabı çox gözlənilməz, bir o qədər də təsirli olub. Eşidəndə kövrəlmədim desəm, yalan olar. Dialoq aşağıdakı kimi olub.**

**-Müəllimə, mənim sehirli fırçam olsaydı, Əhməd babamı çəkərdim, canlanardı, onu qucaqlayardım.**

**-Ərhun, baban rəhmətə gedib?**

**-Yox, müəllimə, mənim babam şəhid olub, cənnətdədir.**

**-Allah rəhmət eləsin, mənim balam.**

**-Atama deyəcəm, sehirli fırça alsın, onu canlandırım ki, qucaqlayıb öpüm...**

**Dostlar, indi siz deyin, mən sehirli fırçanı hardan alım?**

**Zaur Əhməd**

## Fövqəladə Hallar Nazirliyinin 15 illik yubiley medalı təsis edilib




**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.**

Adalet.az xəbər verir ki, Qanuna əsasən, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 10 illiyi (2005-2015)" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilir:

"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" yubiley medalı;".

Həmçinin, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilir.

**"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilir.**

## Mayor Sərxan Muxtarov minaya düşərək şəhid olub



**Tabor komandiri mayor Sərxan Muxtarov Qubadlı istiqamətində hərəkətdə olarkən minaya düşərək Şəhid olub.**

**Allah rəhmət etsin!**

Bu bir xalq qəzetidi
www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 004 (5836) 14 yanvar 2021-ci il | Qiyməti 30 qəpik

## ERMƏNİSTANDA PREZİDENT VAR Kİ?!



**Mətbuatda oxuyuram ki, Armen Sarkisyan Covid19-a tutulub, vəziyyəti də Ermənistanın özü kimidi.**

Ermənistanda prezident var ki?! Bizim JEK naçalniklər ondan daha hörmətli və hökmlüdü.

Şəklinə baxdım, yazığın üzünü də sızanaq basıb.

# “Onlar cinayət predmeti olan əməllər törədiblər”



**Qanunsuz məskunlaşma siyasəti hərbi cinayətdir və onlar işğalın son dönəmində bu siyasəti heç gizlətmirdilər belə. Onlar dünyanın müxtəlif yerlərindən erməni mənşəli insanları gətirərək Şuşa şəhəri də daxil olmaqla tarixi Azərbaycan ərazilərində məskunlaşdırırdılar. Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə danışıb.**

Bax:səh-2

## “YAŞAT”ın Himayəçilik Şurasının növbəti iclası keçirildi



**Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun Himayəçilik Şurasının onlayn formada növbəti iclası keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev görülmüş və nəzərdə tutulan işlər, Fondun yeni yaradılmış yashat.gov.az portalı, eyni zamanda Himayəçilik Şurasının fəaliyyətinin təşkili Qaydaları barədə məlumat verib. Himayəçilik Şurasının üzvləri də cari məsələlər, həmçinin gələcək fəaliyyətə dair təkliflərini diqqətə çatdırıblar. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Fondun vəsaitinin sərəncamçısı müəyyən edilib. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti isə Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

## NƏ QƏDƏR GÖZ ÇIXARMALIDIRLAR Kİ...

**Gözü çıxmalı qardaşlar öyrənsinlər.**

**Deməli, Binəqədi rayonunda "Qafqaz" nəqliyyat şirkətinin rəhbəri Rəşid Əmirlinin obyektini rayon icra hakimiyyəti...**

... qeyd edək ki, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının maaşını hələ ki Elxan Allahverdiyev alır. Görək nə vaxta qədər alacaq?..

... başçısının göstərişi ilə gəlib dağıdıblar. Və oxuyuram ki, həmin obyektin yerləşdiyi əraziyə görə 222 min manat pul ödəmişmiş. Və sonra əlavə xərclər, rüşvətlər və sair və ilaxır.

Onu da oxuyuram ki, bu Rəşid Əmirli müharibə dövrü 16 tirini ayırıbmış ki, orduya xidmət eləsin.

Və bu qalmaqala səbəb o olub ki, icra başçısı Elxan bəy ona 5 şəhid məzarının götürülməsini tapşırıb. Rəşid bəy də bildirib ki, şəhidlə alver etmək olmaz, şəhidi rüşvət mənbəyinə çevirmək günahdı.

Və nəticədə... Nəticədən də xəbəriniz var.

Ay Rəşid bəy, bu 5 şəhid məzarı eləsin 10 min manat, aparıb verəydin ki, alın, özünüz götürün.

Yeri almaqdan ötəri 222 min manat verən bir bəy üçün 10 min manat nədir ki?

**Çox xahiş edirəm, bu məlumatı Dövlət Təhlükəsizlik Xidməti oxumasın.**

## ABŞ F-16-larına alternativ - "Bayraktar AKINCI"

**Türkiyə böyük müjdəni verdi : Dünyanı heyrətləndirən "Bayraktar AKINCI" pilotsuz təyyarə gəlir - ABŞ F-16-larına alternativ olacaq.**

Türkiyə Müdafiə Sənayesi başqanı İsmail Dəmir, "Baykar" şirkəti tərəfindən yerli və milli imkanlarla istehsal edilən "AKINCI" PUA-nın ilk tədarükünün bu il ediləcəyi müjdəsini verib. Adalet.az xəbər verir ki, İsmail Dəmir 2021-ci ilin PUA istehsalında Türkiyə üçün önəmli bir il olacağını bildirib. "2021-ci ildə ilk tədarüklər "AKINCI" PUA-larla olacaq. "Aksunqur" PUA-ların kütləvi istehsalı davam edəcək, "Atak Faza" 2-nin tədarükü başlayacaq. "Hisar-O"-nun sınaqları tamamlanacaq. İlk milli gəmi əleyhinə raket "Atmaca", tank əleyhinə yeni silah "Karaok"nun ilk tədarükü bu il ediləcək. "Altay" tank üçün hazırlanmış Batu tank mühərrikinin ilk prototipi və yeni nəsil yüngül zirehli nəqliyyat vasitələri üçün hazırlanmış UTKU mühərriki və ötürülməsinin ilk prototipi bu il idarə ediləcək", deyə Dəmir qeyd edib.

## Sənan Hacı Əkbər oğlu Rüstəmov



**Doğum günün mübarək, sevimli Sənan! İgid Sənan!**

**Nəhayət ki, ruhun şaddır... 19 yaşlı canını uğrunda fəda etdiyin torpaq azaddır!**

**Bundan sonra gənc ruhun Ağdam səmasında təbəssümlə cövlan edib, bizim necə yaşa dolduğumuzu izləsin...**

**Nur içində uyu, işıqlı gənc...**

**Paylaşdı:**
**Vüsalə Məmmədova**

## Şəhidlər Xiyabanında 20 Yanvarla bağlı hazırlıq işləri başlanılıb

***Şəhidlər Xiyabanında 20 Yanvar faciəsinin ildönümü ilə bağlı hazırlıq işləri aparılır.***

***Bu barədə Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən bildiriblər.***



***Bakı Şəhər İcra Hakimiyyətinin qurumları tərəfindən təmir, geniş təmizlik və abadlıq işləri görülür, ağaclar budanır, qazon örtüyü yenilənir, yeni güllər əkilir, səkilər və bütün ərazi yuyulur. Xiyabanda faciənin ildönümü ilə əlaqədar müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Bu işlərə təcrübəli mütəxəssislər, landşaft- dizaynerlər cəlb olunub. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.***

Aqil ABBAS
aqilabbas@rambler.ru

## 37-Cİ İL DEYİL, CƏNABLAR



**“Atalar və oğullar” məsələsində Stalin deyirdi, ata oğula, oğul da ataya cavabdeh deyil. Təbii ki, bunu sözdə deyirdi, əməldə yox. Ata tutulanda nəinki oğulunu və ya oğullarını bütün ailəni, hətta bütün nəsli Sibirə sürgün edirdi.**

**İndi 37-ci il deyil. Ola bilər ki, ata oğula cavabdeh olsun, çünki övladına o tərbiyə verib: ata oğulunu ərköyün edib, əməllərinə göz yumub. Bəli, övladları cinayət etmiş atalar cəzalana bilər.**

Bax: səh.2

## KÖPƏK OĞLUNUN SOVET HÖKUMƏTİ...



*Görünür, elə ona görə dağıldı ey. Hərbçilər və milislər (polislər) ictimai nəqliyyatdan pulsuz istifadə edirdilər. Tələbələr aylıq abonement alırdılar, bu da təxminən tələbələrin nəqliyyata xərcləyəcəyi pulu 70 faiz azaldırdı. Ümumiyyətlə, bütün abonementi olanlara şamil edilirdi.*

*Tələbələr deyəsən, oktyabrın 1-dən başlayaraq may ayının axırınadək dəmir yolu nəqliyyatında bütün SSRİ ərazisində 50 faiz endirimlə gedib-gələ bilirdilər. Bilmirəm, təyyarədə bu vardı, yoxsa yox. Çünki tələbə vaxtı dəmir yolundan istifadə edirdim, təyyarədən yox.*

*Tələbələri qoydum bir kənara, amma hərbçilər və polislər şəhərdaxili nəqliyyatdan pulsuz istifadə etməlidirlər!*

*Qorxmayın, bununla hökumət, daha dəqiq desək, nəqliyyatla bağlı şirkətlər acından ölməz.*

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı bərbərxanada saçını qırxdırır. Dəllək:

**- Müəllim, qayınanan var?**

Vəli:

**- Hə, var.**

Bir az keçir, dəllək bir də soruşur:

**- Qayınanan var?**

Vəli təəccüblə:

**- Hə, var.**

Üçüncü dəfə dəllək soruşanda Vəli:

**- Ayə, dedim ki var dana, neynirsən?**

Dəllək:

**- Müəllim, hər dəfə soruşanda saçların biz-biz durur, onda saçını arxayın kəsə bilirəm.**

# Prezident: “30 illik danışıqlar prosesində heç bir nəticə yox idi”



**Siz müharibə zamanı Azərbaycanın işğaldan azad olunmuş şəhərlərini ziyarət etmisiniz və özünüz vəziyyətin şahidi oldunuz. Hər şey tamamilə məhv edilib. Bizim bu barədə məlumatımız var idi. Çünki işğal edilmiş ərazilərdə vəziyyətlə bağlı bizdə müəyyən görüntülər var idi. Lakin səmimi desəm, biz dağıntıların bu qədər geniş vüsət almasını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, onu nümayiş etdirir ki, torpaqlarımızı işğal altında saxlayan ölkə Azərbaycan mədəniyyətinin izini silmək, Azərbaycan xalqının irsini məhv etmək istəyirdi.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib: ”Biz açıq-aydın başa düşürük ki, bu dağıntılar birinci Qarabağ müharibəsindən sonra edilmişdir. Bu, müharibə zamanı edilməmişdir, çünki müharibə zamanı bu cür dağıntıları etmək mümkün deyil. Bu, Azərbaycan xalqına məxsus hər şeyi məhv etmək və gələcəkdə azərbaycanlıların geri qayıtmasına imkan verməmək üçün işğaldan sonra edilmişdir. Bu, bir daha onu nümayiş etdirir ki, demək olar, 30 illik danışıqlar ərzində Ermənistanın yalnız bir məqsədi olmuşdur, bu da danışıqları sonsuz və faydasız etmək idi və bu da baş verdi. Çünki demək olar ki, bu 30 illik danışıqlar prosesində heç bir nəticə yox idi. Yalnız danışıqlar, yalnız səfərlər, yalnız bəyanatlar var idi, lakin heç bir nəticə yox idi. Bu da təcavüzkara işğal olunmuş ərazilərin tarixi, mədəni və dini mənşəyini dəyişməyə cəhd etmək imkanını verdi”.

## “Onlar cinayət predmeti olan əməllər törədiblər”

**Qanunsuz məskunlaşma siyasəti hərbi cinayətdir və onlar işğalın son dönəmində bu siyasəti heç gizlətmirdilər belə. Onlar dünyanın müxtəlif yerlərindən erməni mənşəli insanları gətirərək Şuşa şəhəri də daxil olmaqla tarixi Azərbaycan ərazilərində məskunlaşdırırdılar.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə danışıb.

”Şəhər və kəndlərimizin adlarını dəyişirdilər, hətta xristian dini abidələrinin mənşəyini belə dəyişirdilər. Onlar xristian dininə ibadət edən qədim udilərin dini irsinin mənşəyini dəyişirdilər. Onlar qədim Qafqaz Albaniyasının kilsələrini erməni kilsələrinə çevirirdilər. Beləliklə, onlar cinayət predmeti olan bir çox əməllər törədiblər”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Azərbaycana vurulmuş ziyanın qiymətləndirilməsi prosesinə başlandığını qeyd edən Prezident İlham Əliyev deyib ki, tanınmış beynəlxalq şirkətlərin köməyi ilə maddi, mədəni, mənəvi, ekoloji ziyan hərtərəfli qiymətləndiriləcək və bu da təcavüzkar Ermənistan dövlətini beynəlxalq məhkəmələrə vermək imkanı yaradacaq.

## Prezident dəstəyə görə ICESCO-ya minnətdarlıq etdi

**Prezident İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə qurumun Azərbaycana göstərdiyi davamlı dəstəyə görə minnətdarlığını bildirib.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı müharibə başlayandan bir neçə gün sonra ICESCO-nun Azərbaycanın ədalətli mövqeyinə çox dəstəkləyici bir bəyanat verdiyini və qərarlar qəbul etdiyini də minnətdarlıq hissi ilə xatırladıb.

”Həmçinin bizim şanlı Zəfərimizdən sonra sizin mənə Qələbə münasibətilə göndərdiyiniz təbrik məktubunuza görə də minnətdarlığımı bildirmək istəyirəm. Bütün bunlar bizim birliyimizi, bizim xalqımızın birliyini nümayiş etdirir. Bildiyiniz kimi, Azərbaycan İslam həmrəyliyi ilə bağlı məsələləri həmişə güclü təşviq etmişdir və ICESCO Azərbaycanda çoxsaylı tədbirlər keçirmişdir. Ümidvaram ki, bu, belə də davam edəcək. Biz həmişə müsəlman ölkələri arasında birliyə çağırış etmişik. Sizin Ağdamda və digər yerlərdə gördükləriniz, həmçinin Ermənistan rəhbərliyinin müsəlmanların dini hisslərinə və tarixinə necə münasibət bəslədiyini göstərir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

## İlham Əliyev: “Məscidlərdə donuz saxlamaq müsəlmanlara qarşı təhqirdir”

**Ermənilərin bizim məscidlərdə donuzları və inəkləri necə saxlaması ilə bağlı çoxsaylı şəkillər var. Bu, təkcə azərbaycanlıların təhqir edilməsi deyil, bütün müsəlmanlara qarşı təhqirdir.**

Adalet.az xəbər verir ki, bu fikri Prezident İlham Əliyev ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə söyləyib. Dövlətimizin başçısı deyib: ”Zəngilanın işğaldan azad edilmiş ərazilərinə səfərim zamanı mən tamamilə dağıdılmış məscidə baş çəkdim. Şuşada onlar bütün məscidləri tamamilə dağıdıblar, bir məsciddən başqa. O da yarımçıq dağıdılmışdı, lakin sonra İslama aid mədəni və dini məkanları qoruduqlarını nümayiş etdirmək adı altında onlar bəzi təmir işləri görməyə çalışmışdı. Əfsuslar olsun ki, bir xarici şirkət bu təxribatçı təşəbbüsə qoşulmuş və bizim icazəmiz olmadan qanunvericiliyimizi, sərhədlərimizi pozaraq Şuşaya gəlmişdi. Həmin xarici şirkət Azərbaycan hökumətinin icazəsi olmadan, Dağlıq Qarabağda həmin vaxt mövcud olan qanunsuz rejimin himayədarlığı altında bəzi təmir işləri görmüşdü. Beləliklə, onlar cinayətkarlarla əlbir oldular, çünki ermənilər işğal edilmiş ərazilərdə demək olar ki, 70 məscidi dağıdıblar”. Azərbaycan Prezidenti vurğulayıb ki, bu məscidlərdən birində təmir işləri aparmağa çalışmaq, sadəcə olaraq, onların sanki özlərini tolerant olduqlarını, müsəlman mədəniyyətinə, müsəlmanların hisslərinə hörmət etdiklərini nümayiş etdirmək cəhdi idi. ”Əgər onların münasibəti belə idisə, niyə digərlərini dağıdıblar və niyə digərlərini təmir etməyiblər? Şuşaya gəlmiş həmin xarici şirkət digər məscidlərin, bütün dini və mədəni irsin dağıdıldığını görmədi? Onlar hətta bunu dağıdan separatçılardan da pis davrandılar. Lakin biz hər şeyi bərpa edəcəyik”, - deyə Prezident İlham Əliyev qeyd edib.

## Əhməd İsmayılov Medianın İnkişafı Agentliyinin İcraçı direktoru təyin edildi

**Prezident İlham Əliyev Ə.M.İsmayılovun Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru təyin edilməsi haqqında Sərəncam verib.**

Adalet.az xəbər verir ki, Sərəncamla Əhməd Məhəmməd oğlu İsmayılov Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru təyin edilib.

# "DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ GERİDƏ QALIB"

## Üçtərəfli Moskva görüşləri diplomatik uğurlarımızın davam etdirildiyini göstərir

**Otuz ilə yaxındır ki, Ermənistanın Azərbaycanın hərbitəcavüzü nəticəsində 20 faiz torpaqlarımız işğal altında saxlanılırdı. Xarici diasporlarının, erməni kilsəsinin dəstəyi ilə əsrlərdi Qədim türk torpaqlarında "Böyük Ermənistan" yaratmaq xəyyalları ilə yaşayan, ermənilər işğalçılıq siyasətlərini davam etdirir, "yeni ərazilər" işğal etmək iddialarını gizlətmirdilər. Beynəlxalq ictimayyət, beynəlxaq qurumlar isə nəinki onları cəzalandırmır. əksinə himayə edirdilər.**

Azərbaycan hakimiyyətibu uzun illər ərzində işğal altında qalan torpaqlarımızın beynəlxalq hüquq normaları çərçivəsində, dinc yolla qaytarılmasına çalışmasına baxmayaraq, Ermənistan rəhbərliyinin və onları himayə edənlərin pozucu qüvvələrin fəaliyyəti nəticəsində məsələnin dinc yolla həllinə nail olmaq mümkün olmurdu.

Yeni ərazilərin işğal edilməsi iddialarını gizlətməyən ermənilərin təxribatları ilə yanaşı, erməni siyasi qüvvələrinin təxribat xarakterli çıxışları nəhayət ki, səbr kasasını doldurdu. Təmas xəttinə yaxın yaşayış məntəqələrimizin, növbəti dəfə arteleriya atəşinə tutulmasından sonra, sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev Müzəffər silahlı qüvvələrimizə "İrəli" əmrini verdi.

***44 gün sürən Vətən müharibəsi nəticəsində Ermənistan silahlı qüvvələri darmadağın edildi, 300-dən artıq yaşayış məntəqəmiz Ali Baş Komandanımızın rəhbərliyi ilə Ordumuz tərəfindən işğaldan azad edildi və Ermənistan rəhbərliyi noyabrın 9-dan 10-nuna keçən gecə Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə kapitulyasiya aktına qol çəkməyə məcbur edildi. Razılaşma protokuluna görə erməni terrorçu qüvvələri işğal etdikləri digər ərazilərindən də çıxarıldı və Beynəlxaq səviyyədə tanınan ərazi bütövlüyümüz təmin olundu.***

Razılaşma bəyanatının digər bəndlərinin möhkəmləndirilməsi məqsədilə yanvarın 11-də Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi.

Görüşün məqsədi 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağa dair imzalanmış üçtərəfli bəyanatın reallaşdırılmasının gedişini, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımları birlikdə müzakirə etmək olub.

10 noyabr üçtərəfli bəyanatının videoformat şəklində imzalandığını və bununla bağlı təmasların telefon danışıqları ilə baş tutduğunu nəzərə alsaq, bu, Vətən Müharibəsində Azərbaycanın tarixi zəfəri və Ermənistanın hərbi kapitulyasiyasından sonra üç ölkə liderinin ilk birbaşa danışıqları idi.

Azərbaycan Rusiyanın tərəfdaşlıq və mehriban qonşuluq jestlərini qiymətləndirərək görüşdə iştiraka razılıq verib.Görüşün yekunu olaraq bölgədəki vəziyyətin inkişafina dair birgə bəyanat imzalanıb.Tərəflər 10 noyabr bəyanatının regiondakı bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını nəzərdə tutan 9-cu bəndinin həyata keçirilməsinə dair üçtərəfli işçi qrupun yaradılması barədə razılıq əldə ediblər.

***Azərbaycan, Ermənistan və Rusiyanın baş nazir müavinlərinin rəhbərlik edəcəyi işçi qrup yanvarın 30-dək ilk iclasını***



***keçirəcək, fəaliyyət istiqamətləri üzrə ekspert alt qrupları yaradacaqlar.Dövlət orqanlarının səlahiyyətli nümayəndələrindən təyin olunacaq ekspertalt qrupları bir ay ərzində layihələri, eləcə də onların icrası üçün lazımi resurs və tədbirlərin siyahılarını təqdim edəcəklər.İmzalanan bəyanatdan da görünür ki, görüş Azərbaycanın maraqları çərçivəsindən kənara çıxmayıb.***

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiyanın paytaxtı Moskva şəhərinə qalib ordunun Ali Baş Komandanı kimi səfər etdi. Ermənistanın baş naziri Nikol Paşinyan isə boynu bükük, rəzil bir vəziyyətdə idi. Hərb meydanında qalib gələn Azərbaycan, diplomatik arenada da üstün mövqedə olduğunu, hər hası güzəştlərə getməyəcəyini nümayiş etdirdi.

Görüşdən sonra verdiy bəyanatda: ***"Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb"*** - deyən prezident İlham Əliyev daha sonra bidirdi ki, ***"Regionun bundan sonrakı davamlı və təhlükəsiz inkişafını təmin etmək üçün görüş çox vacib idi. Biz nəticə əldə etmək, sentyabrda-noyabrda baş vermiş hadisələrə yekun vurmaq əzmindəyik".***

Azərbaycan tərəfi qapalı görüşdə istədiyinə nail olub. Ortaq bəyanatın mətni - humanitar və kommunikasiya məsələləri ilə bağlı üçtərəfli işçi qrupunun yaradılması da bunu təsdiqləyir: Bakının şərtləri qəbul edilməsəydi, üçtərəfli əməkdaşlıq formatı olmayacaqdı.

Azərbaycan tərəfinin görüşdən əvvəl irəli sürdüyü və yeni bəyanatla təsbit olunmuş tələblər regional sabitliyi və təhlükəsizliyi möhkəmlətməyə xidmət edir. Bu, faktiki olaraq "Mehri dəhlizi" - Naxçıvana, daha sonra Türkiyəyə dəmir yolunun açılması üzrə işlərin başlaması deməkdir. Açılacaq kommunikasiya xətləri "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəi olacaq. Azərbaycanın quru yolla kommunikasiya əlaqələri pozulan Naxçıvan Muxtar Respublikası ilə, həmçinin Tükiyə ilə əlaqələri güclənəcək, ölkəmizin geoiqtsadi əhəmiyyəti artacaq.

***Prezident açılacaq kommunikasiya xətlərinin region ölkələrinin hamısı üçün əhəmiyyətini vurğulamaqla irəli sürdüyü altıtərəfli əməkdaşlıq formatı təklifinin qüvvədə olduğunu xatırlatmış oldu. Xüsusi qeyd etmək gərəkdir ki, Ermənistan müxalifəti və Rusiyadakı erməni lobbisi görüşün pozulmasına çalışırdı, Paşinyanı görüşə gəlməməyə çağırırdı. Paşinyan hökuməti də erməni cəmiyyətinin itmiş nüfuzunu bərpa etmək üçün Moskva danışıqlarında maksimum nəticə əldə etmək, bu, mümkün olmadıqda danışıqları pozmaq istəyirdi.***

Görünən o idi ki, erməni diplomatiyası Minsk qrupu formatında danışıqların bərpasına çalışır, bu məqsədlə görüş barədə Fransa prezidenti Makrona xəbər sızdırılmış, görüşün Rusiyanın yarıməxfi şəkildə keçirmək cəhdləri əngəllənmişdi. Paşinyan administrasiyası kommunikasiya xətləri ilə bağlı Azərbaycanın təşəbbüsünün qarşısını almağa can atır, bunun əvəzinə 10 noyabrdan sonra ələ keçirilmiş erməni diversantlarının-terrorçularının azad olunması məsələsini qabardırdı.

Lakin bu cəhdlər heç bir səmərə vermədi, Azərbaycan diplomatik danışıqlarda da bir daha üstünlük qazandı, danışıqların məcrasını öz istədiyi istiqamətə yönəltdi.Azərbaycan hərb meydanında qazandığı zəfəri diplomatik masada, danışıqlar prosesində davam etdirir.

Paşinyanın iddiaları fonunda Moskva görüşünü Ermənistan üçün növbəti fiasko saymaq olar. Paşinyanın görüşdən sonra, "erməni anklavının statusu və diversant - terrorçularının azad olunması ilə bağlı", görüşdə heç bir nəticələ əldə edə bimməsindən razı qalmadığı mətbuatın gözündən qaçmadı. Hiss olunurdu ki, Ermənistan özü üçün uğursuz və nəticəsiz danışıqlarda iştirak etməyə məcburdur. Paşinyanin Minsk qrupu formatının bərpasına çalışırması da bir nəticə veməyəcək.

**Üçtərəfli Moskva görüşünün nəticələrini müharibə sonrası Ermənistanda və onlara himəyadarlıq edən revanşist qüvvələrə vacib mesaj sayıla bilər.**

**Hazırladı:**
**Rüstəm HACIYEV**

## DİN Bakı sakininin əsassız cərimələnməsi ilə bağlı məsələni araşdırdı




**Facebook sosial şəbəkəsində İmamət İsmayılova adlı şəxs polisin onun qonşusunu əsassız bölməyə apararaq protokol yazması barədə ittihamlar səsləndirməsi müzakirəyə səbəb olub. Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, həmin şəxslə əlaqə saxlanılaraq, məlumat dəqiqləşdirilib:**

**"Məlum olub ki, İ.İsmayılovanın qonşusu Aydın Məmmədov Suraxanı rayon ərazisində epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejim qaydalarını pozaraq tibbi maskadan istifadə etmədiyinə görə barəsində inzibati tənbeh tədbiri tətbiq olunub. Suraxanı RPİ 32-ci PB əməkdaşları tərəfindən tərtib olunan inzibati xəta haqqında protokol tam əsaslıdır, hər hansı hüquq pozuntusu yoxdur". E. Hacıyev vətəndaşlara belə məsələlərdə diqqətli olmağa, əsassız məlumatları yaymamağı tövsiyyə edib: "Tövsiyə edirik ki, sosial şəbəkə istifadəçiləri polis haqqında hər hansı məlumatı tirajlayarkən diqqətli olsunlar. Çünki sosial şəbəkələrdə "fakt" kimi təqdim olunan, feyk xəbərlər dəqiqləşdirilməklə yoxlanılır.**

**Feyk xəbərlər əsasən saxta, manipulyasiya məqsədilə yaradılan hesablarda paylaşılaraq, həqiqət kimi təqdim olunur. Buna ənənəvi mediadan fərqli olaraq sosial media istifadəçilərinin paylaşımlarında daha çox rast gəlinir. Daxili işlər orqanlarının fəaliyyəti insanların həyat və sağlamlığının qorunmasına xidmət edir.**

**Pandemiya şəraitində vətəndaşlardan tətbiq edilən izolyasiya tədbirlərini anlayışla qarşılamalarını, karantin rejimi qaydalarına riayət etmələrini xahiş edirik".**

## Nazirlər Kabinetindən vaksinlərin idxalı ilə bağlı yeni qərar

**Ölkə iqtisadiyyatının neft məhsullarına artmaqda olan tələbatını tam ödəmək, Avropa ekoloji standartlarına uyğunlaşdırılaraq daha yüksək keyfiyyətə malik neft məhsullarının istehsal edilməsi məqsədilə Heydər Əliyev adına Neft Emalı Zavodunun modernizasiyası işləri həyata keçirilməkdədir.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, həmin layihə çərçivəsində xərclərin optimallaşdırılması məqsədilə vergi və gömrük sahəsində bir sıra tədbirlər görülmüşdür.




Belə ki, Nazirlər Kabinetinin müvafiq qərarına və 2021-ci il dekabrın 31-dək Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar gömrük rüsumlarından azad olunub.

Hazırda Zavodun modernizasiyası işlərinin davam etdiyini və layihənin maliyyə yükünün artırılmasının zəruriliyini nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən qəbul edilmiş bu Qərarla gömrük rüsumlarından azadolma müddəti əlavə 1 il artırılır.

**Bundan başqa, koronovirus (COVID-19) pandemiyasının insan həyatına və sağlamlığına mümkün təsirlərinin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiqedici sənədi əsasında yeni növ koronovirus (COVID-19) infeksiyasına qarşı vaksinlərin və həmin vaksinlər üçün nəzərdə tutulmuş şprislərin idxalı - 2021-ci il yanvarın 1-dən 2 il müddətinə rüsumdan azad edilıb.**

Aqil ABBAS

# 37-Cİ İL DEYİL, CƏNABLAR

**“Atalar və oğullar” məsələsində Stalin deyirdi, ata oğula, oğul da ataya cavabdeh deyil. Təbii ki, bunu sözdə deyirdi, əməldə yox. Ata tutulanda nəinki oğulunu və ya oğullarını bütün ailəni, hətta bütün nəsli Sibirə sürgün edirdi.**

**İndi 37-ci il deyil. Ola bilər ki, ata oğula cavabdeh olsun, çünki övladına o tərbiyə verib: ata oğulunu ərköyün edib, əməllərinə göz yumub. Bəli, övladları cinayət etmiş atalar cəzalana bilər.**

**Amma oğul atanın əməlinə cavab verə bilməz. Adətən keçmiş Sovetlər İttifaqında bir adamı dövlət vəzifələrinə, xüsusi xidmət orqanlarına götürəndə, ümumiyyətlə, milisə, prokurorluğa, Ədliyyə Nazirliyinə, Partiya Komitələrindəki vəzifələrə götürəndə və hətta Partiyaya keçəndə bir anket doldurmalı idi. O anketdə atan kimdi, anan kimdi, bacın kimdi, qardaşın kimdi, qardaşının arvadı kimdi, onun atası, anası kimdi, bacının əri kimdi, onun ata, anası kimdi, qayının kimdi, xaricdə qohumun varmı... Qısası, bütün nəsil haqqında məlumat verməli idin. Əgər qardaşın arvadının qardaşı və sair və ilaxır hansısa bir məsuliyyətə cəlb olunubsa, artıq sənin anketin ləkəli sayılırdı və sənə vəzifə vermirdilər və yaxud orqanlarda işə götürmürdülər.**

**Yadıma məşhur bir hadisə düşdü. Şair Əhməd Elbrus Partiyaya keçəndə anketə yazıb ki, xaricdə qohumlarım var. Büroda soruşublar ki, xaricdəki qohumların kimdi?**

**Deyib:**

**-Nelson Mandela, Ancela Deviz, Çe Qevara Fidel Kastro.**

**Hamı çaşıb.**

**Əhməd Elbrus deyib ki, xarici ölkələrdə kim azadlıq uğrunda mübarizə aparıbsa, mənim qohumumdu.**

**Şairi partiyaya keçirmişdilər.**

**İndi gələk başqa bir məsələyə. Görkəmli hüquqşünas İlyas İsmayılov Moskvada çıxan ”Sosialist qanunçuluğu” jurnalında, deyəsən 1974-cü ildə, belə bir məqalə ilə çıxış eləmişdi, indiki kimi yadımdadı, çünki bu barədə əvvəllər də yazmışam. Yazmışdı ki, işə götürdüyünüz adamlardan atasının, anasının, qardaşının, bacısının, ya hansısa qohumunun kimliyini soruşmayın, çünki onların heç birini özü qazanmayıb.**

**Ona bircə sual verin: dostun kimdir? Çünki dostlarını özü qazanıb.**

**Bizdə belə bir fikir var: ”Dostunu göstər, sənin kim olduğunu deyim”. Çox qəribədir ki, almanlarda bunun təmiz başqa bir variantı var: ”Düşmənini göstər, sənin kim olduğunu deyim”. Yəni görüm sənin gücün nə qədərdi.**

**Nə isə, qayıdaq mövzuya. Və əslində heç mövzudan kənara çıxmamışdıq.**

**”Azərxalça”nın sədri Vidadi Muradov həbs olundu. Dərhal bütün saytlarda, sosial şəbəkələrdə yazırlar ki, oğlu Cavid Muradov vəzifəsindən istefa verməlidir və ya verib. Cavid Muradov polkovnikdir, Səbayel rayonunun polis rəisidir. Mən qarabağlıları yaxşı tanıyıram və çoxu ilə də münasibətim var. Amma çox qəribədir ki, nə Vidadi Muradovu tanımışam, nə də oğlu Cavidi. Yox, deyəsən bir dəfə Cavidlə rastlaşdıq, iki-üç dəqiqə səmimi söhbətimiz oldu. Xoş təsir bağışladı. Cavan, enerjili bir gəncdir.**

**İndi niyə Cavid Muradov istefa verməlidir? Leytenantlıqdan yüksəlib polkovnik olub. Ona yüksək vəzifə etibar olunub. Cavid atasına görə cavabdeh deyil və o nə də Pavlik Morozovdu. Bəlkə istəyirsiz bu ölkədə pavlikmorozovlar yetişdirəsiniz?!**

**General-mayor Zakir Nəsirov çox haqsız olaraq MTN-in oyununun qurbanı olmuşdu və həbs edilmişdi. Amma onda Daxili İşlər Nazirliyi onun bu sistemdə işləyən oğulunu xaric eləmədi və çox da düz elədi.**

**Baxıram, İmişli rayonunun sabiq icra başçısı Vilyam Hacıyevin oğulunu Qubadlı rayon prokurorluğuna müstəntiq göndəriblər. Yenə sosial şəbəkələr və müəyyən saytlar şivən qoparıb.**

**Ay cənablar, 37-ci il deyil. Vilyam Hacıyevin oğlu Respublika Prokurorluğunun Korrupsiya İdarəsində işləyib və fəaliyyətində heç bir nöqsana yol verməyib. İndi atasına görə oğlu ömrü boyu ağrı çəkməli və işsiz qalmalıdır?**

**Vilyam Hacıyev nə cinayət törədib-törətməyib, bu məhkəmədə bilinəcək.**

**On iki imama ağlayanda bir dəfə də Yezidə ağlayın. Vilyam Hacıyev İmişliyə icra başçısı təyin olunana qədər İmişil böyük bir kənd idi. Vilyamın vaxtında şəhərə çevrildi, o qədər abadlıq işləri gördü ki, bir neçə rayonu çıxmaq şərtilə, heç başqa rayonlarda belə bir abadlıq və inkişaf olmamışdı. İmişli kənd təsərrüfatı rayonundan çıxıb sənaye şəhərinə çevrildi.**

**Möhtərəm Prezidentin İmişliyə səfərlərində bu rayonda görülən işlər dəfələrlə müsbət qiymətləndirildi.**

**Bircə faktı nəzərinizə çatdırım ki, İmişli Azərbaycanda ilk dəfə yeganə rayon oldu ki, dövlət büdcəsindən dotasiya almadı, özü-özünü maliyyələşdirə bildi. Bu, məhz Vilyam Hacıyevin Möhtərəm Prezidentin sərəncamlarına vaxtlı-vaxtında əməl etməsindən irəli gəlirdi.**

**İndi Vilyam Hacıyev nə günah eləyib onu məhkəmə müəyyənləşdirəcək və cəzasını alacaq. Amma buna görə onun oğlunu cəzalandırmaq yenidən 37-ci ilə qayıtmaq deməkdi.**

**37-ci il deyil, cənablar! Ataların cəzalarını oğullar çəkməli deyil. Təbii ki, həmin o oğullar bu dövlətə, bu millətə sədaqətlə qulluq edirlərsə.**



*Səxavət Məmməd*

# Sərhəddə gəlincə, DSX çox ciddi işlər görməkdədir

*Ermənistan Dağlıq Qarabağ üçün hələ də status istəyir - gülməlidir. Cəmiyyətimizdə bəzilərini status məsələsi narahat edir - qəribədir.*

*Müharibədən öncə Dağlıq Qarabağ və ətraf rayonların müzakirəsi gedirdi. Buna normal yanaşmaq lazımdır. Çünki hər ikisi ermənilərin əlində idi. Əli güclü olan da, istədiyi kimi oynayır. Necə indi Azərbaycan dövləti status məsələsi ilə bağlı istədiyi kimi davranır. Dağlıq Qarabağa status verilə bilərmi?*

*Statusun olması üçün öncə tamlıq olmalıdır. Dağlıq Qarabağ Muxtar Vilayəti tam deyil. DQMV-nin 25 faizi işğaldan azad edilib və məlum bəyanatla hər kəs olduğu yerdə dayanacaq. DQMV-nin status alması üçün gərək o 25 faizi ya ermənilər işğal etsin ya da, Azərbaycan o ərazidən imtina etsin. Bu imtina yox, daha çox intihar olardı. Ona görə də, Ermənistanın nə istəməsindən aslı olmayaraq status platonik sevgi kimi olacaq.*

*Sərhəddə gəlincə, DSX çox ciddi işlər görməkdədir. Bir məsələni anlamalıyıq ki, iki ölkə arasında ilk dəfədir sərhəd çəkilir. Bu çox qəliz məsələdir. Bir şey ki, Gürcüstanla münasibət həmişə yaxşı olub, ancaq sərhədlərin dəqiqləşdirilməsi məsələsi hələ də bitməyib. Ən az "Keşikçi Dağ"la bağlı problemdən hər kəsin xəbəri var.*

*Aldığım və dəqiqləşdirdiyim dəqiq məlumata görə DSX bir qarış belə güzəştə getmir. Zəngilanın Rəzdərə və digər yerləri də tam həllini tapıb. Bundan başqa çoxlarının gözləmədiyi bir ərazi də həll olub. Anklavla bağlı xəbəri də oxuyacağıq.*

*Bunlar ağır və çox çətin prosesdir. Ona görə ləng getdiyini düşünə bilərik. Prosesin daha da ləng getdiyini düşünməyə əsas verənsə, cəmiyyətin məlumatlandırılmamasıdır. İnformasiya qıtlığı komplo teorilərinə yol açır. Fikrimcə proseslər jurnalistlərin iştirakı ilə aparılsa bu qədər neqativlik olmaz.*

## Polis əməliyyat keçirdi, heroin və saxta pul satanlar yaxalandı



**Astara Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər saxlanılıb. Onlardan müxtəlif növ narkotik vasitələr, psixotrop maddə və saxta pul əsginasları aşkar edilərək götürülüb.**

DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan Adalet.az-a verilən məlumata görə, Astara RPŞ-nin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri tədbirlərlə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan rayon sakinləri Orxan İbrahimov və Sədi Məmmədov saxlanılıb. Onların hər ikisinin üzərindən narkotik vasitə heroin aşkarlanaraq götürülüb. Davam etdirilən əməliyyat tədbirləri ilə onlara narkotik vasitəni satan şəxsin Astara şəhər sakini İmran Məmmədov olduğu müəyyən edilib və o, saxta 100 ABŞ dollarını satarkən saxlanılıb. İ.Məmmədovun üzərindən və yaşadığı evdən ümumilikdə 810 qram narkotik vasitə qurudulmuş marixuana, 74 qram psixotrop maddə metamfetamin,13 ədəd 100 ABŞ dolları, 2 ədəd 100 manatlıq, 6 ədəd 50 manatlıq, 20 ədəd 20 manatlıq saxta pul əsginasları və 1 ədəd gecəgörmə cihazı aşkar edilərək götürülüb.

Faktla bağlı Astara RPŞ-də araşdırma aparılır.

## *Küveyt hökuməti bir ay işləyib, istefa verdi*



*Küveytin Baş naziri Sabah əl Xalid əs-Sabah Nazirlər Kabinetinin formalaşmasından bir ay sonra hökumətin istefası ilə bağlı ərizə yazıb.*

*Bu barədə Küveytin KUNA xəbər agentliyi məlumat yayıb. Buna səbəb onun parlamentlə olan fikir ayrılığıdır. Küveyt əmiri baş nazirin ərizəsini qəbul edib, sonra isə Baş nazir digər nazirlərin istəyi ilə özü istefa verib.*

*Qeyd edək ki, hökumət üzvləri ötən ilin dekabrında seçilmişdi.*

***MEHRİBAN***

# Türk ordusunun inanılmaz silahı

## Ərdoğan iki il əvvəl elan etmişdi



**Aralıq dənizinin şərqindəki ona yaxın ölkə ilə üzüzə qalan Türkiyənin Silahlı Qüvvələrindən kritik həmlə gəlib.**

140 il əvvəl iki sualtı gəmi ilə ilk dəfə dənizlərin altında fəaliyyətə başlayan Türk Donanması bu gün bölgəsindəki ən təsirli qüvvələrdən birinə çevrilir.

Yerli mətbuatın verdiyi məlumata görə, Türkiyə yeni "U 214" tipli sualtı döyüş gəmilərinin istehsalına başlayıb.

Gələn ildən 2027-ci ilə qədər sualtı gəmilər bir-birinin ardınca dənizlərə buraxılacaq.

Yeni layihə 2011-ci il iyunun 22-də Almaniyanın "ThyssenKrupp" Dəniz Sistemləri Şirkəti və Türkiyə Müdafiə Sənayesi Nazirliyi arasında anlaşmanın imzalanmasından sonra qüvvəyə minib. Artıq layihə çərçivəsində "U 214" tipli sualtı gəmilərin istehsalına başlanıb.

Artıq sualtı gəmilərdən biri 2019-cu ilin dekabrında Prezident Rəcəb Tayyib Ərdoğanın qatıldığı bir mərasimdə müvəffəqiyyətlə dənizə buraxılıb. Həmin tədbirdə layihənin 5-ci sualtı gəmisi olan "Seydi Əli Rəis"in ilk qaynaq mərasimi keçirilib.

Türkiyə Hərbi Dəniz Qüvvələri Komandanlığı tərəfindən "Rəis tipli sualtılar" adlandırılan sualtı gəmilərin 80 faizi yerli texnologiyalarla istehsal olunur. 2.7 milyard dollarlıq layihə çərçivəsində 6 ədəd müasir sualtı gəmi 2027-ci ilə qədər tədricən Türk donanmasının inventarizasiyasına daxil ediləcək.

**Türkiyə istehsalı gəmilər dünya miqyasında nüvə enerjisi ilə işləyən sualtı qayıqlardan sonra ən strateji sualtı gəmi kimi tanınır. Hidrogen yanacağı ilə işləyən sualtı gəmilər 21 gün ərzində su səthinə çıxmadan hərəkət edə bilər. Hərbi mütəxəssislər müharibə vaxtı gəminin səthə çıxmadan üç həftə gizlənməyin strateji xüsusiyyət olduğuna diqqət çəkirlər.**

# SENAT TRAMPA QARŞI İMPİÇMENT QƏRARI VERƏ BİLƏCƏKMİ?



**ABŞ prezidenti Donald Tramp istefa verməyi düşünmür. Bu barədə CNN telekanalı hakimiyyətə yaxın mənbələrə istinadən məlumat yayıb.**

Telekanal bildirib ki, Ağ Evin yüksək vəzifəli məsləhətçilərindən biri bəyan edib ki, "Tram üçün istefa vermək məğlubiyyətini etiraf etməyə bərarabərdi.

Ona görə də o belə bir addım atmayacaq. Onun fikirincə senatın Trampı ittiham etməyə vaxtı çatmayacaq. Telekanal qeyd edir ki, Prezident Tramp " alçaldılmamış", müddətinin sonunadək vəzifəsini içra edəcək.

"Biz yanvarın 20-nə, ABŞ-ın yeni prezidenti Co Baydenin inaqurasiya mərasiminədək işimizin başında olacağıq, sonra isə gələcəyə doğru baxacağıq"- deyə müşavir bildirib. CNN bildirir ki, Tramp hələki vəziyyəti müşahidə edir və kimlərin onun əleyhinə, kimlərin leyhinə çıxış etdiyinə baxır. "Prezident günlərə deyil, adamların adlarına baxır".

Müşavir qeyd edib ki, 6 yanvardakı qarşıdurmalardan sonra prezident "bükülmüş" görünür.

Kapitoliyaya məlum hücumlar nəticəsində 5 nəfər ölüb, çoxsaylı xəsarət alan və həbs olunanlar var. Bununla bağlı demokratlar vitse-prezident Makyk Pensdən Trampı vəzifəsindən kənarlaşdırmağı tələb edirlər. Pens isə bu tələbi yerinə yetirməkdən imtina edib. Demokratkar ehtiyat variantdan istifadə etməklə, Trampa qarşı impiçment qərarı verməyə hazırlaşır.

**ABŞ-ın hazırki prezidenti qaydalara görə inaqurasiya mərasimindən bir gün əvvəl Ağ Evi tərk etməlidi. Tramp artıq yeni seçilmiş prezidentin and içmə mərasimində iştirak etməyəcəyini bəyan edib. O, ABŞ tarixində özündən sonra seçilən yeni prezidentin inaqurasiya mərasimində iştirak etməyən dördüncü prezident olacaq.**

**Rüstəm Hacıyev**

# "Agentliyin yaradılması gözlənilən idi"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2020-ci ildə imzaladığı fərmanda Azərbaycanda Medianın İnkişafı Agentliyinin yaradılması nəzərdə tutulub. Bu qurumun gələcək fəaliyyəti ilə bağlı media eksperti, professor Qulu Məhərrəmlinin fikirlərini öyrəndik:**

"İlk olaraq onu deyim ki, Agentliyin yaradılması gözlənilən idi.

Azərbaycanda medianın inkişafı, onun cəmiyyəti ifadə etməsi, dünya informasiya məkanına inteqrasiyası, ümumiyyətlə, medianın özünün bəlli bir səviyyəyə qalxması bu gün Azərbaycanda strateji hədəflərdən biridir. Hazırkı əsrdə biz media vasitəsilə fikirləri ifadə edirik, dünyada nələr baş verir, onları öyrənirik, məlumatlarımızı dünyaya çatdırırıq. Müasir dünyada informasiya cəmiyyətinin formalaşmasında media böyük rol oynayır. Burada söhbət internet mediasından, televiziyalardan, radiodan, yazılı mətbuatdan gedir. Ki, onlar kül halında Azərbaycan mediasının simasını müəyyənləşdirir. Medianın yüksək standartlara cavab verməsi, dəqiq, dürüst, peşəkar səviyyədə çalışması üçün ona həm dövlət qayğısı olmalıdır, həm medianın özü informasiya-kommunikasiya texnologiyalarına həssas olmalıdır, həm də müəyyən peşə standartları qorunmalıdır. Bunlar çox ciddi məsələlərdir. Prezidentin imzaladığı fərmanda bunlar öz əksini tapıb.

Azərbaycan mediasının təxminən 150-yə yaxın yaşı var. Onun keşməkeşli yolları olub, müxtəlif ictimai-siyasi formasiyalardan keçib. Bu gün müstəqil Azərbaycanın səsi olmaq üçün Azərbaycan mediasının ciddi texnoloji bazası, peşəkar kadrları, Azərbaycanın səsini dünyaya çatdıran media qurumları olmalıdır. Multimedia sistemində ayrılan qollar-televiziya, radio, yazılı mətbuat, sözün həqiqi mənasında Azərbaycanın gerçəkliyini dünyaya çatdırmalıdır. Birinci növbədə isə cəmiyyət üzvlərini obyektiv, dürüst, dolğun informasiya ilə təmin etməlidir.

**İndiyə qədər bizdə media sahəsində mövcud olan təşkilatlar ictimai təşkilatlardır. Mətbuat Şurası, Jurnalist Birlikləri və s. KİV sahəsində dövlət siyasətini həyata keçirən bir qurum-KİVDF var idi. Təəssüf ki, onun da fəaliyyəti Vüqar Səfərlinin dövründə donuq və qüsurlu şəkildə mövcud olmuşdur. Ümid edirik ki, Prezidentin imzaladığı fərmanla yaradılan agentlik sözün həqiqi mənasında mediaya yeni nəfəs verəcək".**

**Rövşən Tahir**

# "Vəziyyət belə davam edə bilməz!"

## Həkimdən karantin rejiminə etiraz

**Artıq bir ilə yaxındır ki, Azərbaycan əhalisi karantin rejiminin ağır şərtlərilə yaşamağa məcburdur. Təhsil müəssisələri, iş yerlərinin böyük əksəriyyəti bağlıdır, toy-yas mərasimlərinin keçirilməsi qadağandır... Bir tərəfdən xəstəlik qorxusu, digər tərəfdən qadağalar insanlarda ruh düşkünlüyü, depressiya yaradıb. Bu isə postpandemiya dövründə psixoloqlara ehtiyacın artacağını labüd edir.**

Tanınmış həkim-nevroloq Qalib Əsədov Modern.az-a bildirib ki, karantin qadağaları aradan qaldırılarsa, heç bir psixoloqa da ehtiyac qalmayacaq:

"Cəmiyyətdə pozitiv emosiya nə qədər çox olarsa, bir o qədər də qurub-yaratmaq, inkişaf etdirmək istəyi artar. Beyində olan neqativ emosiya ilə pozitiv emosiya arasında balans pozulanda, insanlar aqressivləşir, cinayətkarlığa meyllənir və təhlükəli hala gəlib çıxır. Bir ildir ki, Azərbaycan insanı pozitiv emosiya almaq hüququndan məhrum edilib. Təsəvvür edin ki, ucqar bir kənddə 5-6 nəfər elçiliyə gedib, onu tutub terrorçu kimi təqdim edirlər. İlboyu işləyən insanlar yay aylarında istirahət etmədi, evə qapadıldı. Bu tədbirlərin virusa qarşı mübarizədə heç bir əhəmiyyəti yoxdur, əksinə, insanların immunitetini aşağı salır.

Azərbaycanda olan sərt karantin dünya üzrə ən uzunmüddətlidir. Amma statistikaya baxın, hər milyon nəfərə görə yoluxma və ölüm sayına görə ən qabaqda gedirik. O zaman sərt karantinin nə əhəmiyyəti var... İnsanlar pulsuz test olunmalıdır. Testin cavabı yeddi günə yox, yeddi dəqiqəyə verilməldir, xaricdəki kimi. Daha "cavabı tez istəyirsənsə, əlavə pul ver" tələbi olmamalıdır. Bu biabırçılıqdır".

Q.Əsədov qeyd edib ki, səhiyyə sisteminin səriştəsizliyi vətəndaşın üzərinə yüklənməməlidir:



"Dünyanın hansı ölkəsində insanlar SMS-lə küçəyə çıxır, hansı ölkədə bir rayondan digərinə getmək qadağandır? Virusun mutasiyaya uğrayan yeni növü yarananda Britaniyada istədilər ki, Londonu karantinə alsınlar, insanlar ayağa qalxdı və buna imkan vermədilər. On aylıq sərt karantinin əziyyətini çəkməyimizə baxmayaraq, rəsmilər yenə də bizə "məsuliyyətsiz vətəndaş" deyirlər. Sadəcə səhiyyə sistemi öz bacarıqsızlığının üstünü karantinlə ört-basdır edir. Dərman yoxdur, özəl klinikalarda testlər çox bahadır və aydın məsələdir ki, xəstəlik yayılacaq.

Xəstəyə hansı dərmanı yazaq bilmirik, çünki apteklərdə dərmanlar yoxdur. Səhiyyədəkilər öz işlərini bacarmırlar, əvəzində deyirlər "vətəndaş məsuliyyətsizdir, vətəndaş özünü qorumur". Heç bizim vətəndaşdan qanunpərvəri, qanuna hörmət edəni, həm də cərimələrin çoxluğundan qorxanı yoxdur.

Rusiya, Ermənistan, Gürcüstan, Türkiyədə məktəblər işləyir. Bizim uşaqlar 10 aydır onlayn təhsilin ümidinə qalıblar. Günəmuzd işləyən insanlar ev dustağı olublar. Səhiyyənin başında duranlar öz məsuliyyətsizliyini vətəndaşa yükləyib, onu cərimələtdirməklə vəziyyətdən çıxır.

İnsanlar toy edə bilmirlər, bu, bədbəxtlikdir. 18 ildən sonra əsgərliyə aparmağa oğlan tapmayacaqlar".

Nevroloqun sözlərinə görə, evində acından ölən, pozitiv emosiyadan məhrum olan insana hansısa psixoloji dəstəyin köməyi yoxdur:

**"Adamlar evə qapadılıb, pulu yoxdur, üstəlik də cərimələr belini qırır. Artıq insanlarda kütləvi psixoz yaranıb. İnsanlar mənfi enerji ilə o qədər yükləniblər ki, sosial şəbəkələrdə bir status yazırsan, bir balaca kiminsə xoşuna gəlmədi başlayırlar təhqirə, söyüşə, qarğışa. Bununla yanaşı, intiharlar artıb. Çünki insanlara sevinmək qadağan olunub. Biz qalib ölkəyik, insanlar bu sevinci belə, ürəkdən yaşaya bilmirlər. Belə olmaz, vəziyyət bu şəkildə davam edə bilməz. Dərhal karantin rejimi ləğv edilməlidir. Səhiyyə sistemində ciddi dəyişiklik olmalıdır, əks təqdirdə biz ömrümüzün sonuna qədər karantində yaşayacağıq".**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz Səxavət İsmayılov.**

**19.08.1997-ci ildə Beyləqan rayonu, Dünyamalılar kəndində anadan olan İsmayılov Səxavət Sabir oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 08.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz baş leytenant Elçin Ağayev.**

**07.07.1993-cü ildə Cəlilabad rayonu, Günəşli kəndində anadan olan Ağayev Elçin zakir oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 06.10.2020-ci il tarixdə Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Şəhidimiz leytenant Elzar Yusubov***



**"Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz leytenant Elzar Yusubov.**

**09.01.1989-cu ildə Gürcüstanın, Başkeçid rayonunun,Qəmərli kəndində anadan olan Yusubov Elzar Süleyman oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək qəhrəmancasına Şəhid olub.**

***Qəhrəman Şəhidimiz MAXE Şakir Orucov***



**"Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Şakir Orucov.**

**24.03.1999-cu ildə Beyləqan rayonu, Qəhrəmanlı qəsəbəsində anadan olan Orucov Şakir Bakir oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 06.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Şahin Fətaliyev.**

**30.07.1999-cu ildə Beyləqan rayonu, Bolsulu qəsəbəsində anadan olan Fətaliyev Şahin Şamxal oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 30.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin Zəhra(2020-ci il təvəllüdlü) adlı qızı Vətənə əmanət qalıb.**

***Qəhrəman Şəhidimiz MAXE Cavanşir Əzimov***



**"Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Cavanşir Əzimov.**

**23.05.1997-ci ildə Beyləqan rayonu, Birinci Şahsevən kəndində anadan olan Əzimov Cavanşir Calal oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 04.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**



İlqar Rəsul

## PLANETİN İNSAN NƏVAZİŞİNƏ EHTİYACI VAR

*Yer Planeti, insanlıq tarixində ilk dəfədir ki, eyni vaxtda bütün parametrlər üzrə böhran yaşayır. Yəni, iqtisadi, siyasi və hərbi krizislə yanaşı, ciddi ekoloju, ruhi və mənəvi böhran yaşanır dünyada. Bu böhranı heç bir təbii sərvət və ya texniki proqres aradan qaldırmaq iqtidarında deyil. Bu böhranı yalnız planetə ibtidai insan münasibəti qədər sadə yanaşma həll edə bilər. Yəni bir az loru dildə desək, hazırda Yer Planetin insan nəvazişinə ciddi ehtiyacı var. Bugünkü insansa daha çox dağıdıcı genlərdən formalaşıb. Hətta Allahın, eləcə də ölümdən sonrakı həyatın varlığına və yoxluğuna İnsanın inamı o qədər maddiləşib, o qədər qətiləşib ki, inanclı da, inancsız da öz "imanına" söykənib yalnız dağıtmaqla məşğuldur. Məhz bu səbəb, hazırda böhranı insan nəvazişinin aradan qaldıra biləcəyi fəlsəfəsini iflas etdirir...*

*Beləliklə, düşünməyə əsas yaranır ki, böhran çox qlobaldı və onu hansısa qlobal proses aradan qaldıracaq. Böhranın özündən xeyli qlobal müdaxilə yəni. Hər halda ümid edək ki, insan insanlığını bərpa edə bilməsə, böhrana həlledici müdaxiləni hansısa kənar sivilizasiyalar yox, təbiət özü öz üzərinə götürəcək. Onda düşünmək olar ki, bu Planetinin gələcək sahibi də insan olacaq. Yalnız varlıq olaraq yox yəni, həm də münasibət olaraq.*

*Sözümün canı odur ki:*

*Hazrda dünyada iki tip insan var:*

*1. İnsancasına münasibət görəndə təsirlənən, hətta ən azı içində kövrələnlər,*

*2. İnsancasına münasibətləri inkar edənlər, ən azı gülən, lağ edən, şəbədə qoşanlar..*

*Bayaqdan dediyim kimi, dünyada baş verənlər göstərir ki, yer üzündə birincilər ikincilərdən xeyli azdı əlbəttə. Azərbaycanda da həmçinin. Çünki Azərbaycan da dünyanın bir parçasıdı. Və biz də onun vətəndaşlarıyıq. Söhbəti bu yerə gətirib çıxarmağım təsadüfi deyil əlbəttə. Bilmək istəyirəm bizim hansımız 1-cilirdən, hansımız 2-cilərdənik. Bax, məsələn sən, bu yazını oxuyan adam! Hansılardansan? Bilmirsənsə mən deyə bilərəm.*

*Əgər bu bəsit dildə yazılmış yazını oxuyarkən təsirləndinsə, 1-cilərdən, içində istehza, inkar yarandısa, 2-cilərdənsən*

*2016*



Aqşin Dadaşoğlu

**Allah verən bir ömürü beləcə,**
**Bir gün toyda,bir gün yasda yaşadıq.**
**"Adam" ilə dolu oldu hər küçə,**
**"Soxasoxda",basabasda yaşadıq.**

**Adam gördüm başı balıq beyindi,**
**Adam gördüm fikirləri peyindi,**
**Adam gördüm ömrü boyu deyindi,**
**Donquldana ayı ömrü yaşadı.**

**"Oğul"gördüm büdcəmizə yan aldı,**
**Nəsli üçün nələr,nələr götürdü...**
**Oğul gördüm Şəhid oldu Şuşada,**
**Medalını "katibələr" götürdü.**
**Kişi gördüm əyilmədi,sınmadı,**

**Sınanların əli ilə döyüldü.**
**Kişi gördüm yandırdılar yanmadı,**
**"Kişi" gördüm doğulandan əyildi.**

**Bir tərifin ovqatına bayıldıq,**
**Düz sözümüz yerə düşdü heç oldu.**
**Üstümüzə Vətən çəkdik ayıldıq...**
**Ayılanada,ayılanda gec oldu...**

### *Ağdərədə erməni minaya düşərək öldü*



**Azərbaycanın Ağdərə rayonunda mina partlaması nəticəsində bir erməni ölüb.**

**Azvision.az erməni mətbuatına istinadən xəbər verir ki, hadisə 12 yanvar tarixində, saat 17:50-də baş verib.**

**İlkin məlumata görə, həmin şəxs ekskavator idarə edərkən minaya düşərək həyatını itirib.**

### *Moskvada "Stalin" adlı dönər kafesi açılmışdı, bir gün sonra...*




**Rusiyada Moskvanın şimalında "Stalin" adlı bir dönər kafesi açılmışdı. Bu kafedə işləyənlər Stalin dövrünə aid kəşfiyyat servisinin yaşıl uniformalarını geyinirdi. Amma təhlükəsizlik nümayəndələri kafenin adının dəyişdirilməsini və Stalinin portretinin çıxarılmasını tələb etdi.**

Rusiya mediasına danışan vətəndaşlar milyonlarla insanın ölümünə bais olan Stalinin adını istifadə edərək pul qazanmaq cəhdlərinin qəbuledilməz olduğunu dilə gətirdilər.

Bir gün sonra kafenin sahibi kafenin artıq bağlandığını bildirdi.

**Eminquey**

# Qarabağın fatehləri, sizinlə fəxr edirik!

**Təkcə işğala məruz qalmış təcavüzkar düşmənin murdar ayaq izlərini yox, vicdanınızı, ruhunuzu təmizləyən Azərbaycan əsgəri! Qələmin qüdrəti sizin rəşadətinizə çatmasa da, bizim borcumuz sizi ən azından xalqa tanıtdırmaqdır. Buna nə qədər nail olmağımızı gələcək göstərəcək...**

Cəsur şahinlər, Vətən fədailəri, sizi bütün deyilənlərin fövqündə duran fatehlərsiniz, Qarabağın fatehləri! Torpağın azadlığı uğrunda şirin canını belə əsirgəməyən qartallar! Siz Qarabağı yaxından görməmişdiniz. Lakin 27 il azadlığa təşnə, yurda qovuşmaq həsrəti ilə kənd, qəsəbə və şəhərlərimizi azad etmək arzusu ilə ürəyiniz alışıb-yanırdı. İkinci Vətən müharibəsi başlayanda şir tək atıldınız yurdun haqq savaşına!

Siz döyüş meydanlarında hünər göstərəndə yalnız irəli getmək, qələbəyə nail olmaq barədə düşünürdünüz. Ölüm qorxusu arxa plana keçmişdi. Öldü vardı, döndü yox. Hər bir fədai çalışırdı ki, öndə olsun, haçansa azad edənlərin - Qaliblərin sırasında.

### *Qüdrətli, şücaətli igidlərimiz,*

***siz sarsılmaz iradə göstədiniz. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev müharibədə XXI əsrin yeni gedişini müəyyənləşdirdi, qətiyyət, şücaət, siyasət, ədalət göstərdi, bizə qələbə qazanmağın yolunu göstərdi. Biz qələbə zəfərini döyüş meydanında əsgər və zabitlərimizin coşan qeyrəti sayəsində qazandıq.***

BMT-nin, ATƏT-in, Minsk qrupunun edə bilmədiklərini Dövlət-Xalq-Ordu birliyi ilə qazandıq. Buna əsərlərin ruh yüksəkliyini, Vətən sevgisini, arxa cəbhədəkilərin fədakarlığını da əlavə edək.

Azərbaycan əsgərinin cərgəsində Lerikdən pərvazlanmış oğullarımız əsl mərdlik və qəhrəmanlıq göstərənlərin sırasında idi. Onlar azad etdikləri yurdun dağında, daşında, düzündə, çölündə ayaq izləri olan birinci Qarabağ müharibəsi şəhidlərinin, qazilərinin, xaraba görkəmə salınmış şəhər və kəndlərin qisasını aldılar. Qarabağı azad edərkən şəhadətə qovuşmuş şəhidlərin ruhu canlandı, onlar ruhən dirildilər. Ölənlərə "can" dedik, "yaşa, Azərbaycan", - dedik.

Ana torpaq - böyükdən-kiçiyə hamı şəhid oğullarını ehtiramla, sevinclə qarşılayıb, onlara halallıq verdi. Al qırmızı qərənfillərə, üfüqlərə büründü şəhidlər.

Nəhayət, Ulu Öndər Heydər Əliyevin ruhu şad oldu, xalqa minnətdar oldu. Prezident İlham Əliyevə bundan daha çox pay düşür. Çünki o atanın vəsiyyətinə əməl edən varis olduğunu dünyaya göstərdi.

**Eşq olsun Ali Baş Komandana!**

**Yaşasın müzəffər ordumuz, torpağı hünərlə azad edib qorudunuz!**



*Amid Heydərov*



*Ramil Ağayev*



*Əliqismət Yaqublu*



*Babazeynal Babazadə*

İndi də gəlin Lerikin yetişdirdiyi, Qarabağın azad edilməsi uğrunda şəhid olan fatehlər, onların hünəri, dövlətin onların zəfərinə verdiyi qiymət barədə oxucunu məlumatlandıraq. Əlbəttə, onların heç biri unudulmayacaq, ədəbi-bədii əsərlərdə, kitablarda, kino xironikalarında, neçə-neçə qəlbdə xatırlanacaq. Onlar el-obaya baş ucalığı gətiriblər, Vətənin harayına vaxtında özlərini yetiriblər.

**Amid Heydərovun** 1988-ci ilin may ayında dünyaya gəlmişdi. Ali Hərbi Məktəbi bitirmişdi. Tankçılar batalyonunu komandiri, mayor rütbəsində idi. Füzuli istiqamətində gedən döyüşlərdə böyük hünər göstərmiş, düşmənin bir neçə tankını, xeyli canlı qüvvəsini məhv etmiş, piyadaların döyüşündə onlara dəstək olmuşdu. Onun yeganə arzusu düşmən tapdağı altındakı ərazilərimizi asudə görmək idi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Amid Heydərov "Vətən müharibəsinin qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qarabağın azadlığı uğrunda döyüşlərdə böyük hünər göstərmiş **Ramil Mərdan oğlu Ağayevin** 36 yaşı vardı. O, Lerikdə Milli Qəhrəman Valeh Müslümov adına 2 saylı orta məktəbin məzunu idi. Sinif yoldaşları onun çox zarafatcıl, ürəyi təmiz, sədaqətli dost, yurda bağlı olduğunu deyirlər. Ramil 2001-ci ildə Heydər Əliyev adına Hərbi Akademiyanı bitirmişdi, artilleriyaçı ixtisası qazanmışdı. Onun müəllimləri Ramilin cəsur, qorxmaz və bacarıqlı hərbçi olmasına inanırdılar.

### *Vətənpərvərlik onun boyuna biçilmişdi*

Qarabağın işğal altında olması, beynəlxalq təşkilatların buna göz yumması onu daim narahat edirdi. Təcavüzə son qoyulan günün gəlməsinə inanırdı. Elə bu inamla da Cəbrayıl istiqamətində gedən ağır döyüşlərə qatıldı. Həm bir zabit kimi, həm də döyüşçü kimi yalnız irəli can atırdı. Düşmənin texnika və canlı qüvvəsinin məhv edilməsində əsl hünər göstərmişdi. O oktyabrın 8-də şəhadətə qovuşmuşdur. Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Yaqublu Əliqismət Mükafat oğlu.** O, 1992-ci ildə Kələxan kəndində anadan olmuşdur. 2007-ci ildə Lerik şəhər şəhid M.Bağışov adına 3 saylı tam orta məktəbinin 9-cu sinfini bitirib. Cəmşid Naxçıvanski adına Bakı Hərbi Kollecinə daxil olmuşdur. Kolleci bitirdikdən sonra 2010-cu ildə Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbinə dxil olmuşdur.

Ali Hərbi Məktəbi uğurla bitirən hərbçi 2014-cü ildə bir il Təlim Tədris Mərkəzində oxumuşdu.

2015-ci ildə Qobustandakı hərbi hissəyə Silahlı Qüvvələrin leytenantı rütbəsində təyinat almışdı. Elə həmin ildə öz ərizəsi ilə, könüllü olaraq cəbhəyə getmiş, Beyləqan rayonunun Milabaddakı hərbi korpusunda xidmətini davam etmişdir.

### *Cəsur zabit*

2016-cı ildə Aprel döyüşlərində iştirak etmiş, sonra Ağcabədi rayonuna göndərilmişdir. İki il sonra Cəlilabaddakı Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı kimi xidmət göstərmişdir. Xidmət rəisi vəzifəsini icra etmişdir.

Qarabağ uğruna Vətən Müharibəsində fəal iştirak etmişdir. Hamı onu döyüşkən, əyilməz, mərd və cəsur, qorxmaz zabit kimi tanıyırdı. O, Murovdağ, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçının bir neçə kəndinin alınmasında şücaət və qəhrəmanlıq göstərmişdir. Əliqismət Yaqublu Şuşa şəhərinin işğaldan azad edilməsində xüsusi hünər göstərmiş, 5 noyabr 2020-ci ildə Daşaltıda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Döyüş yoldaşlarından Ceyhun Təhməzovun, Atamir Əzizovun dediklərinə görə Əliqismət ölümdən qorxmadan onları və neçə-neçə yaralını döyüş meydanından çıxarmışdır. İki azyaşlı övladı - Əliəsgər və Məhəmməd şəhidimizdən yadigar qalmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Əliqismət "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**Halal olsun.**

Qarşımdakı qovluqda şəhidlərə dair sənədlər, foto-şəkillər, qeydlər çoxdur. Vaxtı gəldikcə onları məqalələrə, oçerklərə çevirib hamıya tanıtdırmağa çalışacağıq. On doqquz yaşında şəhidliyə qovuşan **Babazeynal Babazadənin** döyüş yolu Ağdərə istiqamətində ermənilərə qarşı ölüm-dirim savaşında başlayıb. Minamyot batareyasında cəsur minamyotçu kimi ad çıxarmış Babazeynal düşmənin üç tankını vurmuş, canlı qüvvəsinə tələfat vurmuşdur. Oktyabrın 7-də qızğın döyüşlərin birində şəhidlik zirvəsinə qalxmışdır.

Şuşa şəhərinin azad olunmasını Prezidentə məzurə edən Şuşa fatehlərindən biri, xüsusi təyinatlıların komandiri, mayor (o, Veri-Əliabadı kəndindəndir) qazimiz **Zaur Rəhimov "Zəfər" ordeni ilə təltif olunub.** Mayor **İdris Qənbərov** Qarabağın azad olunmasında göstərdiyi şücaətə görə "Qarabağ uğrunda" ordeni ilə mükafatlandırılıb.

Şəhid qardaşların - **Elgün və Altay Tahir oğlu Mövlanovların** Vətən qarşısında göstərdikləri cəsarət və rəşadət, **İman və Bəhrəm Elxan oğlu Məmmədzadə** qardaşlarının Qarabağın işğalçılardan azad edilməsində düşmən güllələrini öz bədənlərində dəfn etməsi əsl qəhrəmanlığa parlaq bir nümunədir. Onlar öz qanlarıyla şəhidlik adını uca zirvədə yazaraq əbədi heykələ döndülər...

**Əzəli yurd yerlərimizin azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan oğulların hər biri bir qəhrəmanlıq dastanı yaradıb. Bütün şəhid övladların hamısı başımızı ucaltdılar. Onlar cismən aramızda olmasa da, bir təsəllimiz var ki, adlarını qəhrəmanlıq tariximizə yazdırıblar. Onlar öz qanlarıyla Azərbaycanın yeni, şanlı tarixini yazdılar. Aylar, illər ötsə belə bu Zəfər unudulmayacaq.**

**İdris Şükürlü,**
**Əməkdar jurnalist**

## *İlqar Əlfioğlu:* General İbrahim Əhmədovu unutmadıq

**Azərbaycanın Həzi Aslanovdan sonra ikinci tank qoşünları general-mayoru, milli ordumuzun formalaşmasında sinif yoldaşı general-leytenant Valeh Bərşadlı ilə çiyin-çiyinə əmək qoymuş İbrahim Əhmədovun anım günüdür. Onun hərb sahəsində gördüyü işləri kənara qoyaraq, bircə şeyi - ikinci Ərəb-İsrail davasında ərəblərin tank qoşunları komandanının baş müşaviri olduğunu xatırlatmaq istəyirəm...**



İbrahim dayı, səni nə qədər sevdiyimi yərin bilirdin...

Yadıma çox şey düşür. Dədəni sevindirmək üçün Poladliya, həyətimizə tankla gəlməyin də, Dədə ilə görüşmək üçün Qarqara vertalyotla enməyin də, Qasımlıya - bibim Etibargilə yeddi generalla qonaq gəlməyin də, yadımızdadır.

**Unutmadıq, çunki, unudulanlardan deyildin.**

## Vaqif Bayatlıdan xəbər var

**"Hər şey düzələndən sonra dostunun maşınıyla Cəbrayıla, ordan da Şuşaya gedəcəklər."**

Bunları Kulis.az-a əslən Cəbrayıldan olan tanınmış şair Vaqif Bayatlı Odərin həyat yoldaşı Tamam xanım deyib. O daha sonra əlavə edib:

"Vaqif müəllim evdədir, heç yerə çıxmır. Karantinə görə onsuz da insanlar çölə az çıxır, Vaqif bəy isə ümumiyyətlə heç iki-üç saatlığa da çıxmır, bütün günü evdə olur. Səhhəti ilə bağlı onu Türkiyəyə yoxlanışa aparmalıydıq, pandemiya və mövcud vəziyyətə görə evdən çıxarmağa qorxuruq. Ona görə, həkimiylə Votsapda əlaqə saxladıq.

Həkim dərmanlarının vaxtını uzatdı. İmmuniteti zəifdir deyə ora aparmaq mümkün deyil, eyni dərmanlarla müalicəsi davam edəcək. Gözləyirik bu COVİD-19 bəlası bitsin ki, aparıb yoxlanışdan keçirək, əməliyyatdan sonra vəziyyətinin nə yerdə olduğunu bilək". Tamam xanım bildirib ki, şair yaradıcılıqla da məşğul olmağa davam edir:



"Səhhəti imkan verən qədər yaradıcılıqla məşğul olur, yazır, pozur. Mətbuatı izləyir. Telefon zənglərinə də hərdən cavab verir. Jurnalistlərin suallarına da cavab verir. Bir neçə gün əvvəl bir sayta müsahibə də vermişdi. Yəni Allaha şükür, sağlamdı. Keçən dəfə bir tələbə yoldaşı ilə danışırdı. Onunla böyük qələbəmiz haqqında çoxlu söhbət etdilər, çox həyəcanlandılar. Vaqif bəy vətənpərvər adamdır, ağladı da. Hətta sözləşdilər, hər şey düzələndən sonra dostunun maşınıyla Cəbrayıla, ordan da Şuşaya gedəcəklər. Allah qismət eləsin!"

**Yaponiyada bərpa dövrü adlanan "Meiji islahat dövrü" 1868-ci ildə başladı.**

Həmin dövrdə qadının saçı onun namusunu təmsil edirdi. Laklanmış, taxta kimi sərtləndirilmiş klassik toppuz saç stilinə və ailə qurarkən dişlərini qaraldıb qaşlarını təmizləmək kimi adət-ənənələrə qadağa qoyuldu. Kişilərin qürur duyduğu samuray tipi toppuz saç da qadağan edildi.



## Yaponiya necə nəhəng oldu?

Bu gün Yaponiyada heç kim "vay mənim namusum, vay mənim ənənəvi saçlarım" deyib ağlamır.

Qadının geyimində də islahatlar aparıldı. Göstərişsiz, qara rəngli, bədəni başdan-ayağa sarıyan, gəzməyi asanlaşdıran çağdaş kimono qəbul olundu. Ardınca avropalı qadınların geyimləri mənimsənildi. Eyni geyim islahatı kişilərin geyindiyi hakama üçün də tətbiq olundu.

Bəs yaxşı, bu qərarların qəbul olunduğu 150 il əvvəl mübahisələr olmadımı, üsyanlar olmadımı? Oldu, amma unudulub getdi.

Yaponiya buddistlərin müəllimlik etdiyi ənənəvi məktəbləri bağladı. İbtidai təhsili məcburi etdi. Danışıq-yazı dili fərqliliyinə son qoydu.

Fransadan hüquq sistemi, Almaniyadan mədəni qanunu aldı.

Ordu yeniləndi, məcburi əsgərlik qüvvəyə mindi.

Qərbin Qreqorian təqviminə keçid olundu. Qərb memarlığı mənimsənildi. Hətta paytaxt belə dəyişdirilib Tokio oldu.

Modern iqtisadiyyatı qurmaq, inkişaf etirmək üçün elm və texnologiyaya sərmayələr edildi.

Milli Bank quruldu. Dövlətin əliylə dəmir və polad fabrikləri açıldı.

Mitsui, Mitsubishi, Sumitomo kimi özəl şirkətlərə dəstək verildi. Yeni pul vahidinə keçid olundu.

Xülasə, Yaponiya kapitalistləşmə dövrünə girdiyi dövrdə feodalizmlə, xanlıqla, torpaq ağalıqları ilə hesablaşdı.

Və dünya nəhəngi olmağı bacardı.

1895-ci ildə Çini, 1905-ci ildə isə Rusiyanı geridə qoydu.

Feodalizmi tövsiyyə edən Yaponiya dünyanın ən böyük iqtisadi güclərindən biri oldu.

Adam başına düşən gəlir bu gün 44 min 227 dollardır.

Dünyanın ən böyük 500 şirkətindən 54-nün mərkəzi Yaponiyadır.

**Biz isə hələ də qadınların geyimlərini, insanların intim həyatını müzakirə edirik. Hələ də dəyişməyə, inkişaf etməyə, nəhənglərdən olmağa gecikirik...**

**Eminquey**

Fidan Abdurəhmanova
Filologiya üzrə fəlsəfə doktoru,
dosent



# SON SÖZLƏRİ VƏTƏN OLDU...

*Bu həyatda hər kəsin ilk sözü olur. Son söz haqqında düşünmək isə hər kəsə qismət olmur. Son sözünü deyə bilənlər ölümün üzünə dik baxanlardır. Müharibəyə könüllü gedənlər cəmi bir faiz yaşamaq ümidi ilə yaşayanlardır. Otuz üç faiz şəhid olmaq, otuz üç faiz əsir, otuz üç faiz itkin düşmə ehtimalı, bir faiz yaşamaq ümidi... Vətənin uğrunda əvəzsiz fədakarlıq zehnində vəruhunda yaşayır Azərbaycan əsgərinin. Bir faiz yaşamaq ümidi ilə 30 ilə yaxın əsirlikdə olan torpaqlarımızın azadlığı uğrunda 44 gün mübarizədə öz qanları ilə Azərbaycan xəritəsinin işğaldan azad olunan rayonlarını Vətənə qaytararaq ən yeni Hərb tarixini yazdı Azərbaycan əsgəri. Şuşanın işğaldan azad olunmasını görək, sonra yaşamasaq da olar deyib - Azərbaycan Əsgəri!*

*Ali Baş Komandan cənab İlham Əliyevin Şüşanın azad olunması xəbərini verdiyi bu tarixi anda uşaqdan böyüyə hər kəs azadlığın xoşbəxtliyini duydu. Bu günü yaşamağımıza kömək edən, lakin, görə bilməyən, qəhrəman şəhidlərimizinruhu şad oldu.*

*Son söz, son əsər ömrün son anlarında yaranır - ya nəsihət olur, ya da vəsiyyətə dönür. Müharibədə boynuna silah götürən bütün əsgərlərin ürəyində son sözü vardır. Çoxumuzun ilk sözü "Ana" olur, nə xoşbəxt o kəsə ki, sonu "Vətən" olur. Vətən müharibəsində şəhidlik zirvəsinə çatan hər bir əsgərin son sözü kimi... heç kim bilmir son nə vaxt olacaq, ilahi məqama nə zaman çatacaq...lakin, əsgərhər anının ölümlə üz-üzə olduğunu bilir. Torpaq uğrunda vuruşanlar ölmür, onlar hər iki dünyanın əfsanəsi, cənnətin ən sevimli qonağı olur. Şəhidlərimizin son sözləri isə özləri haqqında yeni dastanlardı...*

*Şəhid Qocayev Seymur: "....həyatdı, qismətdi, hər şey ola bilər", Allahyaroğlu Şahin "... 30 ildir gözləyirik, mütləq almalıyıq torpaqlarımız, in şa Allah nəsə olsa mənə heç vaxt ağlamayın, oğluma mənim adımı qoyarsız", Həsənov Aydın "... bizə nəsə olsa Vətən bu videoya baxanlara əmanət olsun", Vəli Quliyev "... pis əməldən uzaq olun", Vüsal Allahverdiyev "... ağlayıb eləməyin ha arxamca",Rəşad Bayramov "... torpaqları alıb gələcəm evə", Samir Süleymanov "... sənə sevgilim deyə bildiyim üçün çox xoşbəxtəm", bir gün öncə ata-anasını görməyi arzulayan, Rəşad Ağayev "... eşq olsun Azərbaycan oğullarına", Xudafərinə bayraq asan Elsevər Paşayev yoldaşına yazdığı smsdə "... sən çox güclüsən, uşaqlar sənə əmanət",pulemyot canavarı Orxan Şirinovun yaralı vəziyyətdə komandirinə tapşırdığı son sözü "... atama deyin oğlun kişi kimi şəhid oldu", ilk dəfə rayonundan kənarda olan Vəlizadə Anar "... şəhid olsam bu videonu atama göndərərsiz, həm gülər, həm ağlayar", Məmmədəli Muradoğlu "... şəhid olmaq istəyirəm", Səid Rəşidzadə "... səhər yuxudan duranda anam, qorxma amma deyəsən xəbər var", Əliyev Tamerlanınhər dəfə əminliklə israrla hər şeyin yaxşı olduğunu bildirən səsi "... şükür Allaha hər şey yaxşıdır, canınıza dua edirəm", anasını yeni itirmiş Məmmədliİmran "...bircə gün anasız eyləmə məni", aprel döyüşlərinin iştirakçısı, səngərdə ermənilərə dərs verməyə gedən Elgün Quliyev "...tarix müəllimi işləyə biməsəm də, tarix yazacam", yaralı komandirini xilas edən Vüsal Məmmədov "... gedişimiz var, dönüşümüz yoxdur", Aqşin İbadov "... narahatam, hər şey o qədər mükəmməldir ki, bu məni narahat edir. Bu qədər gözəlliyin davamında şəhadətə sevinc və könül rahatlığı ilə addımlamağa hazıram" deyən və əsir düşməmək üçün səsini çıxarmayan, dörd saat öz ölümünü gözləyərək son çarə kimi özünü videoya çəkən, yaralıElvin Abdurəhmanlının son baxışları onun donan arzuları və son sözləri idi...O telefonda özünə deyil, bizə baxırdı... Bu naməlum baxışların sükutunda ana yurdu bizə əmanət edirdi.*

*Qəhrəmanlıqları ilə yanaşı arzuları, vəsiyyətləri və sosial şəbəkələrdə yazışmaları ilə yaddaşlara həkk olundular. Şəhid Xudayar Yusifzadə isə səsi ilə...*

*Uşaqlıqda"Şuşanın dağları"nı oxuyan şəhidimizin ən böyük arzusu Şuşanın işğaldan azad etdikdən sonra bu mahnını orada səsləndirmək idi. Şuşa işğaldan azad olunduqda bayraq sancan əsgərlərimiz onun şərəfinə həmin mahnını oxumuşdular. Ruhun şad olsun qardaş!*

*Vətən Müharibəsinin iştirakçısı Yusifzadə Xudayar Bərdənin Qazıqurdalı kəndində anadan olandan iyirmi dörd gün sonraatasını itirmişdi. Hələ birinci sinifdə oxuyarkən məktəbdə keçirilən "Əlifba bayramı"nda geyinməyə ailəsindən hərbi paltar istəyən ailənin ən kiçik övladı Xudayar nənəsinin himayəsində böyümüşdü. O həmçinin Bərdə şəhərində,Bülbül adına 1 saylı musiqi məktəbini bitirmişdi. Xanəndəlik ixtisasını bitirməsi və gözəl səs sahibi olması onun hərbiyə olan marağını azaltmamışdı. Elə bu istək onu Vətən müharibəsinin iştirakçısı etmişdir.*

*Yüksək döyüşçü potensialı, əhval ruhiyyəsi ilə yoldaşlarını stresə, ruh duşgünlüyünə qapılmağa qormurdu, nəğmələrivə qəmzəli gülüşü ilə hər kəsin ruhuna nur çiləyirdi.*

*Gizir Yusifzadə Xudayar şəhadətinə qovuşmasından iki gün öncə dostları tərəfindən çəkildiyi videoda oxuduğu mahnısı ilə ürəklərə köçdü, dillərə dastan oldu. Oktyabr ayının 22-də isə Zəngilanın Ağbənd qəsəbəsinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəldi. Vətən uğrunda ölüm həyatın davamıdır - şəhidlik zirvəsi adlandırıb uca yaradan müqəddəs kitabımızda.*

*Bu gün Xəzər Dənizini eşqlə coşdurub, xülyalar, arzular içində bihuş edib,Vətən arzusu ilə nəğmə oxudun və özünə bir xeymə deyil, yeni bir dastan qurdun. Sənin son məktubun, son sözün, son səsin - son nəğmən oldu: Zəngilanda oxuduğu bu mahnı qaldı səndən bizə"Vətən yaxşıdı". İndi sən yoxsan... sən qayıda bilmədin... amma bütün Azərbaycan sənin evini ziyarətə gəlir. Sənin səsinin avazı ilə...kaş ki, bu günü görəydin... bütün müğənnilər dağların qoynunda səsləndirdiyin mahnını sənin səsinə səs verərək oxuyur. Bakının mərkəzində Alov binalarında sənin səsinlə dalğalanır Azərbaycan bayrağı!*

*Yəqin ki, Əliağa Vahidin ruhu da şad olar bu gün, Mirələm Mirələmov "Vətən yaxşıdır" mahnısının son sətirlərinə "Vahid sorma Vətən nədən yaxşıdır"deyə, şairin adı ilə yanaşı şəhidimiz Xudayarı da səslədi:*

*Ay Xudayar, Vətən arzusu ilə nəğmələr oxudun*
*Dumanlar başında dastana döndün... dastana döndün... indi bu dastan sənin adını daşıyır.*

*....sizdən bizədöyüş yoldaşlarınızın xatirələrində və tarixin səhifələrində yaşayan qəhrəmanlıqlarınız,fotoşəkilləriniz, bir də əsərlərə sığmayan son sözləriniz qaldı... son sözləriniz Vətən oldu...*

# KAMAL ABDULLA ƏRMAĞANI

**Bu günlərdə Azərbaycanın dəyərli alimi, böyük söz ustası və həm də Azərbaycanın dünya çapında tanınan yazıçısı Kamal Abdullanın 70 yaşı tamam oldu. Bu yubiley münasibətilə Kamal müəllimin ünvanına, özü də haqqına, içdən gələn sevgilərlə bir-birindən səmimi, məntiqli və tutarlı yazılar gəlmişdi. Həmin yazıların müəyyən qismini ölkə mətbuatında izləmək mənə də nəsib oldu. Açığını deyim ki, Kamal Abdullanın qələmindən çıxan yaradıcılıq məhsullarının demək olar ki, əksəriyyətini oxumuşam. Onun şeirlərilə də baş-başa qalmışam, povestlərilə də, esselərilə də... Bütün bunlar mənə o qədər doğma gəlib ki, müəllifin sözün birbaşa mənasında fanat oxucularının sırasında özümü görmüşəm. Məhz bu səbəbdən də Kamal müəllimlə bağlı səslənən, kağıza köçürülən, dövriyyəyə çıxarılan hər bir fikri həm sayğı, həm də maraqla oxumaq, bu fikirləri müqayisəli şəkildə özümünküləşdirməkdən də çəkinməmişəm. Düşünmüşəm ki, Azərbaycanın sevilən müəlliflərindən birinin oxucusu olmaq, onun yaradıcılığı barədə az qala hər şeyi bilmək heç də günah deyil.**

Bu yaxın günlərin söhbətidi. Redaksiyada çalışdığım zaman hörmətli professorumuz Kamal Abdullanın aftoqrafıyla mənə göndərdiyi ərmağanını ilin ən samballı hədiyyəsi kimi qəbul etdim. Açığını deyim ki, bu hədiyyə ilə bağlı elektron mediadan müəyyən bilgilər əldə etmişdim. Amma müəllifin hədiyyəsini almaq təbii ki, tamam fərqli bir sevincdir. Ona görə də həmin gündən başlayaraq, Kamal müəllimin bu samballı yazıçı ömrünün




ifadəsi olan, az qala mənə divan kimi görünən kitabı oxumağa başladım.

Kitabı çapa hazırlayanların yazdıqları giriş, ön sözü oxuduqca Azərbaycan yazıçısının yaradıcılıq dünyasının nə qədər zəngin olduğunu, onun bir ədəbiyyat adamı, bir alim kimi hansı dərinliklərə işıq saldığını görmək, izləmək olur. Burada bir məqam da mənə azərbaycanlı olaraq ona görə xoş gəldi ki, Kamal müəllim haqında fikir söyləyənlərin həm milli, həm də coğrafi çevrəsi çox genişdi. Yəni çağdaş Azərbaycan ədəbiyyatının sayılıb-seçilən təmsilçisi barəsində müxtəlif xalqların nümayəndələrinin fikirlərini bir kitabda oxumaq həqiqətən təqdirəlayiq işin ortaya qoyulması deməkdir. Bax elə ön sözdə də deyildiyi kimi, qardaş Türkiyədə bir Azərbaycan yazıçısının, bir Azərbaycan elm adamının 70 illiyi münasibətilə, özü də ilk dəfə olaraq bu cür samballı kitabın çap edilib müəllifə ərmağan edilməsi elə Kamal müəllimin oxucuları üçün də ərmağandı. Söylədiyim bu fikrə kitabın ön sözündə də rast gəldim və bir anlıq düşündüm ki, oxucu sevgisinin də, oxucu ürəyinin də bir-biriylə bağlantısı var imiş.

Barəsində söz açdığım kitab "Mitolojinin Elçisi Kamal Abdulla Armağanı" adlanır. Böyük həcmli bu kitabda Kamal Abdullanın yaradıcılığı barəsində söylənilən fikirlərin demək olar ki, hamısının mərkəzində bir Azərbaycan yazıçısının, bir Azərbaycan elm adamının milli dəyərlərə söykənən məntiqi, həmçinin dünya fikir tarixinin ortaya qoyduğu bütövlüyün, yəni olmuşdan olacağa qədər gələn yolun görünən-görünməyən cizgiləri dayanır. Burada "görünən-görünməyən" fikrini ona görə xüsusi vurğulayıram ki, Kamal Abdulla qələmi, Kamal Abdulla işığı çoxumuzun görmədiyini, bilmədiyini də aydınlığa çıxarır.

**Kitabla bağlı bu informasiya xarakterli yazıda bir məqama da toxunmaq istəyirəm. O da kitabın tərtibatıdı. Yüksək peşəkarlıqla tərtib olunmuş kitabdakı yazıların ardıcıllığı, həmçinin buradakı fotolar kitabın oxucusunu yormur. Bu mənada mən bir daha Kamal müəllimə ərməğan olunmuş kitabın oxucusu və o ərmağandan yubilyar vasitəsilə yararlanmış Allah bəndəsi kimi dərin təşəkkürümü bildirir, ona uzun ömür və daha böyük uğurlar arzu edirəm. Düşünürəm ki, dünyanın böyük ədəbiyyat bilicilərinin ədalətli yanaşmasıyla Azərbaycan yazıçısını layiq olduğu ədəbiyyat üzrə ən böyük mükafatçılar sırasında görəcəyik.**

**Əbülfət MƏDƏTOĞLU**

# BİZİM MƏZUN NAĞILIMIZ...

**Biri var idi, biri yox idi, qarşıda nə az, nə çox düz 5 il sürəcək bir tələbə yolu vardı və 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin 624-cü qrupunun 25 nəfərlik birinci kurs tələbəsi sirli-soraqlı bu yola düzəldik. Az getdik, çox getdik, gecə-gündüz düz getdik, oxuduqoxuduqmu, zamanın tələbi idik - tələb olduqmu, sevdik-sevildikmi, bir də onda ayıldıq ki, beş illik tələbəlik yolunun sonudu və ayrılmalıyıq, məzun adlı əjdaha qılınc çəkib, qarşımızı kəsib, bizi "param-parça" edib, məmləkətə paylayacaq.**



Bizsə tələbə dünyasının ağuşunda elə möhkəm uyumuşduq ki, o dünyaya elə qapanmışdıq ki, ayrılıq heç yada da düşmürdü, sən demə ayrılmaq, əlvida sözünün hədəfinə çevrilmək də var imiş. Nə etməli... Az fikirləşdik, çox fikirləşdik, arayıb-axtardıq, axırı ki, birliyimizin, ömür boyu təmasınızın açarını tapdıq: hər il may ayının 2-də görüşmək qərara alındı. Bu tarixin seçilməsi də təsadüfi deyildi, bizim tələbəlik illərimizdə ölçü-biçi başqa idi, 1 may bayram günü kimi qeyd edilirdi, deməli ehtiyatda bir gün var idi və dünyanın harasında olursan ol, 2-si may görüşünə çatma bilərsən.

***1977-ci ildən may görüşlərimiz başladı. Telli Pənahqızı, Şəfəq Nasir, Nərgiz Bayramova, Mehparə Axundova, Mehriban Qənbərova, Sevda, Zəhra...Rəşid Rüstəmov, İsmayıl Ömərov, Elman Qədirli, Azər Abdullayev, Adil Qaçayoğlu, Xəlil Cabbarov, Mail Dəmirli, Həsən Kərimov, Yusif Əliyev... düz 25 nəfər... 622-ci qrupdan da Nailə, Akif, Teymur, Elçin, Ataş, Adil...***

İlk toplantımız çox qələbəlik keçdi. Sanki tələbə idik, o ab-hava bizi tərk etməmişdi. İllər keçdi, keçən illər də izsiz ötüşmədi. Bəzilərimizin ailə qayğıları, bəzilərimizin vəzifə ab-havası sıralarımıza öz əlini çəkdi. Onların yoxluğunun xiffəti o qədər də üzücü deyildi, amma ömürləri yarıda, vaxtsız qırılan uşaqların faciəsi bizi sarsıtdı, özü də kətan parçaya düşmüş ilmə kimi ildən ilə "genişlənəyə" başladı. Əvvəlcə Rəşid Rüstəmov, sonra Mail Dəmirli, Adil Qaçayoğlu, Həsən Kərimov, daha sonra isə Xəlil Cabbarov ... görüşümüzə "gəlmədilər". Gələrdilər, çatardılar, amma Yaradanın yazdığı taledən qaça bilmədilər, çata bilmədilər.

Tələbə dünyamızda başlanan "uralanma" sıralarımızı seyrəlti. Getdikcə seyrələnən sıralarımız kimi görüşlərimiz də səngiməyə başladı və nəhayət sonlandı.

***Sonuncu görüşümüzün tarixi yadımda deyil, tədbirimizi böyük canfəşanlıqla təşkil edən, toplantılarımıza daha çox can yandıran Adil Qaçayoğlu və Həsən Kərimovun vaxtsız vəfatı canımızı yaxdı, tələbə ab-havasına tədricən seyrək duman çökdü. İllərin itgiləri görüş yollarımızı kor dumana bürüdü, görünməz etdi.***

Sonuncu görüşümüzü xatırlamıram, bir daha toplaşa, dərdləşə bilmədik. İndi yalnız təsadüfi görüşlərlə təsəlli tapırıq. Yazıya əlavə etdiyim fotolar da o görüşlərin əsk-sədasıdır, tapa bildiklərimdir. Hərdən FB-də "görüşürük", çünki yeganə görüş yerimiz məhz bu meydandır. Fb-dən öyrənmişik ki, Telli uğurlar qazanıb, Nərgiz nəvələrin sevinci ilə yaşayır, Şəfəq maraqlı elmi-tədqiqatla məşğuldur.



Rəfiqə çalışdığı qəzetdə nüfuz sahibidir. Elman, Səməd, Akif, Azər, Teymurşah... da öz dünyalarını yaşayırlar. Bəziləri jurnalistlik fəaliyyətlərini davam etdirir, bəziləri də Teymurşahın sözü olmasın, təqaüd yaşının dadını çıxarırlar...

Rəhmətlik Yusif Əliyevin vəfatı xəbərini də FB-dən aldıq. İllər ovuca sıxılmış narın qum dənələri kimidir, nə qədər sıxsan da saxlaya bilməzsənsən, axar-gedər. Rəhmətklik Qəhbər müəllimin sözü olmasın, hər şey axır, hər şey dəyişir, axan suya iki dəfə girmək olmaz. Dəyişənsə tarixdi, öz axarındadır, dünənə yaşadıq, bu gün varıq, sabah da olarıq, İnşallah...Tarix daha bir səhifəsini açıb, daha bir ilə başlamışıq. Bu ilin də 2-si Mayı var, amma o ikisi may bizim 2 Mayımız olmayacaq.

***Deyirəm bəlkə, illərin acığına yenə yığışaq, illərə meydan oxuyaq, yenə cavanlıq edək, deyək-gülək, ilk sevginin xiffətini yaşayaq...Yeni nağılımız başlasın...***

Bu duyğular hamımızın ürəyindən keçir, amma... Yaxşı ki, FB var, hal-əhval tuturuq. Bu meydanda da sıramız tam deyil, FB-də olmayanlar var. Dostlarımızdan xahişim odur ki, xəbərləşək, 624-cü qrupun bütün tələbələrini, paralel oxuduğumuz 622- qrupdan olan dostlarımızı (Allah dünyasını dəyişənlərə rəhmət eləsin) FB -yə dəvət edək. Bu meydanda görüş, ünsiyyət o xiffətə əlac olmasa da hər halda bir təsəllidir...

Yenə "Salam uşaqlar, necəsiz, daha bir 2 Mayınız mübarək" - deyək, tələbə dostumuz, sevincimizə, kədərimizə şərik olan Aqil Abbası da dəvət edək, nağılımıza ədəbiyyat fakultəsinin şirinliklərini qatsın, "Ədalət" qəzeti də bu görüş haqqında aləmə car çəksin, əks-səda durğun gölə atılmış daşın yaratdığı dalğa kimi hər yana yayılsın, niyə də olmasın...

**Nağıl dili yüyürək olar, bu da sonu... Göydən 25 alma düşdü, biri mənim, 18-i sizin, 6-da cənnətdə uyuyanlarımızın...**

**Vaqif TANRIVERDİYEV**
**Gəncə**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Murad Quliyev.**

**11.08.1998-ci ildə Beyləqan rayonu, Birinci Şahsevən kəndində anadan olan Quliyv Murad Şahin oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 04.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Şəhidimiz Gəray Soltanov***



**"Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz Gəray Soltanov.**

**29.10.1993-cü ildə Beyləqan rayonu, Dünyamalılar kəndində anadan olan Soltanov Gəray Xəlil oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 04.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin Zeynəb adlı qızı və yaxında dünyaya gələcək övladı Vətənə əmanət qalıb.**

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Elvin İsmayılov.**

**09.03.1989-cu ildə Beyləqan rayonu, Təzəkənd kəndində anadan olan İsmayılov Elvin Tələt oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 27.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***Şəhidimiz əsgər Ağababa Abbasov***



**"Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz əsgər Ağababa Abbasov .**

**14.03.2002-ci ildə Şabran rayonu, Uzunboyad kəndində anadan olan Abbasov Ağababa Səfər oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

***"Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman Şəhidimiz əsgər Nail Abakarov***



**24.07.2001-ci ildə Rusiyanın Kazan şəhərində anadan olan Abakarov Nail Müzəffər oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin Zaqatala rayonu Aşağı Çardağlar kəndində dəfn edilib.**

***Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**"Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz kəşfiyyatçı MAXE Ümüd Xəncəlov.**

**10.04.1994-cü ildə Qusar rayonu, Hil kəndində anadan olan Xəncəlov Ümüd Radif oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 07.10.2020-ci il tarixdə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimizin 3 yaşlı qızı Ulyana və 8 aylıq oğlu Ömər Vətənə əmanət qalıb.**

# Siyəzən şəhidləri

**O taylı-bu taylı Azərbaycanımızın qüdrətli söz ustadı Şəhriyarın misralarıdır:**

*Can qurban etmənin vaxtı çatıbsa,*
*Səndən hansı namərd əsirgəyər can?*
*Qoyuram başımı ayaqlarına,*
*Ey ana torpağım, ey Azərbaycan!*

Və o, gün gəldi... bəri Otuz ildən bəri erməni qəsbkarlarının işğalı altında olan Azərbaycanımızın cənnətməkan güşələrindən olan Qarabağı azad etmək, ölkəmizin ərazisini bütövləşdirmək uğrunda can vermək zamanı gəldi, Ali Baş Komandanın yeni işğala tamah salan qəsbkarı yerində oturtmaq üçün əks-hücum əmri ilə qoşunlarımız silaha sarıldı və müqəddəs Vətən müharibəmiz - II Qarabağ savaşı başlandı. Hamı dəmir bir yumruğa çevrildi. Azərbaycanmızın qeyrətli övladları düşməndən qisas almaq, torpaqlarımızı işğaldan azad etmək eşqi ilə özlərinə yer tapmırdılar o günlər.

***Siyəzənin qeyrətli oğulları da Vətən müharibəsində döyüş cəbhələrində idilər. Qələbəmizlə başa çatan o müqqədəs müharibəmizdə 19 nəfər siyəzənli gənc şəhidliyə qovuşdu.***

***Siyəzən RİH-in başçısı, qələm dostumuz Novruz Nəcəfoğlunun təşəbbüsü ilə 2018-ci ildən rayonda nəşr edilən, ən qədim tarixi abidələrimizdən biri olan "Beşbarmaq" rüblük toplusunun növbəti sayını elə Novruz müəllimin öz təşəbbüsü ilə bütövlükdə Siyəzənin şəhid oğlanlarına həsr etdik.***

***Topludan səhifələri doğma "525-ci" qəzetin oxuculara təqdim edirəm.***

## *"AD ÜSTÜNDƏ..."*



Azərbaycan xalqının qan yaddaşında yaşayan şanlı, bəlkə də ilk qəhrəmanlarımızdan biri kimi əsrlərlə yaşayacaq əzəli qəhrəmanlardan biri - Babəkin anasından soruşublar ki, oğlun hansı atın üstündə düşmənlə vuruşub?

İgid oğulun anası belə cavab verib ki, oğlum at üstündə yox, ad üstündə vuruşub...

***Vətən əsgəri adının şərəfini qorumağı, bu ad uğrunda lazım gələrsə candan belə keçməyə hazır oğullarımız XXI əsrin artıq tarixə yazılan ən ağır savaşında - doğma Qarabağ uğrunda savaşdığımız Vətən müharibəmizdə at üstündə yox, tanklarla, zirehli maşınlarla yağı düşmən üstünə yürüyüb ad üstündə - ya qazi, ya da şəhid olmaq uğrunda nər igidlər kimi düşmən üstünə yürüdülər. Tarixi zəfərimizlə başa çatan haqq savaşımızda qazilərimizlə yanaşı şəhid olan qeyrətli oğullarımızdan biri də Seyfəl Musa oğlu Rəfiyev oldu.***

Seyfəli 21 dekabr 1997-ci ildə Siyəzən şəhərində anadan olmuşdu. 23 yaşlı cavan bir oğlanın qısa tərcümeyi-halı: orta məktəb illəri, sonra da həqiqi hərbi xidmət. Və həqiqi hərbi xidmətdən sonra orduda qalıb müddtədən artıq hərbi qulluq...

Doğma torpaqlarımızın erməni işğalından azad olunması uğrunda başladığımız müqəddəs Vətən müharibəsindən iki gün sonra - 29 sentyabr 2020-ci ildə Füzuli uğrunda döyüşlərdə Seyfəl də şəhid oldu, ad qazandı.

## *BAYRAĞIMIZA BÜRÜNMÜŞDÜ....*

***Türkiyənin "İstiqlal marşı"nın - Məhmət Akif Ərsoyun misralarıdır:***



***Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı!***
***Düşün altındakı minlərcə kəfənsiz yatanı...***

***Və Sadiq Məmmədov erməni işğalı altında olan torpaqlarımızı mənfur düşməndən azad etmək, Birinci Qarabağ savaşımızda şəhid olub hələ də qanları yerdə qalan şəhidlərimizin qisasını almaq uğrunda "kəfənsiz" də öz haqq dünyasına qovuşmağa hazır idi.***

Ancaq Sadiq Məmmədov savaş meydanında al qanına boyandı, Vətənin üç rəngli Bayrağına kəfən kimi bürünüb doğulub boya-başa çatdığı, Vətənin bir parçası olan Qarabağdan xeyli uzaqlarda Siyəzən şəhər qəbristanlığında təntənə ilə torpağa tapşırıldı.

Sadiq Mübariz oğlu Məmmədov 1991-ci ilin avqust ayının 15-də Siyəzən şəhərində anadan olmuşdu, şəhər 2 saylı tam orta məktəbin məzunu idi. 2009-cu ildə, oktyabr ayında həqiqi xidmətə yollanmış, ordudan qayıtdıqdan sonra "SOCAR"da operator işləmişdi. 2020-ci ildə müddətdən artıq hərbi xidmətə yollanmışdı. Ailəli idi.

Böyük qızı Əsnad məktəbəhazırlıq qrupuna gedir. Üçyaşlı qızına isə anasının adını vermişdi: Bahar! Sadiq üçün Vətən də anası kimi şirin, doğma, müqəddəs idi. Elə ona görə də onun uğrunda döyüşlərə qatıldı və 04 oktyabr 2020-ci ildə şəhid oldu.

## *YAŞAYACAQ AD*



***Dünyaya göz açanda ata-anasının qoyduğu ad idi: Ülvi! Onda 2000-ci ilin güllü-çiçəkli bir yaz günü idi; mayın 10-u!***

***Bir gün qabaq 9 Mayı - alman faşizmi üzərində Qələbənin 55 illiyini Yenikənd kəndində də tən-tənə ilə qeyd etmişdilər. Axı, bəşəriyyəti faşizm taunundan azad edənlər arasında o vaxtlar elə bu kənddən olanlar da vardı.***

Oğul övladlarına gənc ata-ana Ülvi adı verdi. Bəlkə də o vaxt ağıllarına gəlməzdi ki, vaxt gələcək, ciyərparaları Ülvi də müqəddəs bir vəzifə uğrunda - Vətən qarşısında borcunu yerinə yetirib dünyanı yeni bir faşizm taunundan - erməni faşizmindən azad edib şəhid adı ilə öz adını daha da ülviləşdirəcək.

20 yaşlı bir şəhid balamızın qısa ömrü kimi yarımçıq tərcümeyi-halını oxuyuram: "10 may 2020-ci ildə Siyəzən rayonu, Yenikənd kəndində anadan olub. 2007-ci ildə Yenikənd kənd tam orta məktəbin 1-ci sinfinə gedib. 2019-cu ildə məktəbi bitirərək oktyabr ayında həqiqi hərbi xidmətə yollanıb.

2020-ci ildə həqiqi hərbi xidməti bitirib. Vətən müharibəsi başlayanda cəbhəyə yollanıb. 06 oktyabr 2020-ci ildə şəhid olub."

Öz şəhid qanı ilə adını ülviləşdirən Ülvi Üzeyir oğlu Mirzəyevin ömür qolu qısa olsa da, xalqımızın qan yaddaşında əsrlərlə yaşayacaq! Necə ki, babəklərimizin, cavanşirlərimizin, koroğlularımızın... adlarını əsrlər keçsə də yaşadırıq!!!

## *ÖZÜNÜ QURBAN VERDİ*



***Otuz iləcən erməni işğalı altında olar torpaqlarımızın azad olunması üçün bəzilərinin vaxt-bivaxt efirə çıxıb hətta nəzir verəcəklərini, qurban kəsəcəklərini eşidirdi Rəşid!***

***Türk analar oğullarını əsgərliyə yola salanda alınlarına xına yaxırlar. Lazım gəlsə Vətənə qurbanlıq qoç kimi... - Rəşid bunu da eşidib bilirdi.***

***Rəşid Pərviz oğlu Həmidov həm də burasını da yaxşı bildirdi ki, Vətənin ərazi bütövlüyünün bərpası, işğaldan azad olunması üçün savaş meydanında igid, qeyrətli oğullar da qurban getməlidir...***

Nə vaxtsa əlinə keçən bir kitabda oxumuşdu: "İgidləri qurban verin, daşı yox. Analar oğullar doğacaq, onlar böyüyüb igid olacaqlar. Ancaq torpaq doğmur, böyümür". Və zaman-zaman qiymə-qiymə doğranan, parçalanan ərazilərimizin bir qisminə qəsbkar mənfur qonşularımız göz dikmişdi, yağlı bir tikə kimi...

Rəşid avqust ayının 19-da 1999-cu ildə Siyəzən şəhərində anadan olub. 2007-ci ildə Siyəzən şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. İki il həmin məktəbdə oxuduqdan sonra yaşayış yerinin dəyişdiyindən təhsilini Bakı sanatoriya tipli 10 saylı internat məktəbində davam etdirib. 9-cu sinifdən sonra o, Dəmir Yolu Texnikumunun tələbəsi olub. Texnikumu bitirdikdən sonra 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb. 07 oktyabr 2020-ci ildə torpaqlarımızın erməni işğalından azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Siyəzən şəhər ümumi qəbristanlığında dəfn olunub.

Rəşid özünü ana torpağa qurban etdi...

## *BƏY OLMADI, ŞƏHİD OLDU*



Güllü-çiçəkli bir yamacın yalında kəkilli bir oğlan ovurdlarını şişirdib qara zurnada şövqlə "Cən-gi" çalırdı. Öz çalğısına başı necə qarışmışdısa, bayaqdan bəri səssiz-səmirsiz dayanıb durub onun "Cəngi"sinə heyran-heyran qulaq asan qocanı qəfildən gördü. Havası yarımçıq qaldı.

***Qoca elə bil yeniyetməni sınağa çəkirmiş kimi: - Nə yaman zilə qaldırmısan zurnanı, ay oğul, - dedi, - bəlkə başqa bir hava çalasan. Yaşıdların "Vağzalı" arzusunda olur.***

***Yeniyetmə utancaq-utancaq gülümsədi: - "Vağzalı" havası "Cəngi"dən sonra çalınar, baba, qoy "Cəngi"ni başa çatdırım!***

***"Cəngi" səsi dağı-dərəni başına götürmüşdü.***

***Röyal da "Cəngi"nin yağı tapdağı altından azad olunacaq Qarabağımızda, Şuşada, Cıdır düzündə çalınacaq günün intizarında idi. "Vağzalı"nı sonra çaldıracaqdı!***

Ancaq...

Röyala "Vağzalı" havasının sədaları altında ağ duvağa bürünmüş sevgilisinin qoluna girmək qismət olmadı. Röyal bəy ola bilmədi.

Demə, qismətinə daha şərəfli bir ad yazılıbmış. Bəy ola bilmədi: şəhid oldu.

Qurbanov Röyal Ziyad oğlu 2001-ci ilin avqust ayının 21-də Beşdam kəndində anadan olmuşdu.

Birinci sinfə doğma kəndindəki ümumi orta məktəbdə gedib. 2018-ci ildə Siyəzən şəhər 3 saylı tam orta məktəbi bitirib. Bir il sonra həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsində xüsusi təyinatlı bölümün döyüşçüsü kimi iştirak edib.

## *"QOY OTURSUN İSTƏYƏNLƏR DÖRD DİVARIN İÇİNDƏ..."*



Erməni qəsbkarlarının torpaqlarımızın yeni işğalı, qəsbkarlıq niyyətli ilə növbəti hücumu başla-yanda Ali Baş Komandanın əks-hücuma keçmək döyüş əmri ilə başlanan İkinci Qarabağ - Vətən müharibəsində Mətləb Əkbərov da evdə, "dörd divar"ın arxasında rahat otura bilməzdi.

***Mətləb Zülfüqar oğlu Əkbərov 2001-ci ilin yanvar ayının 21-də Yenikənd kəndində dünyaya gəlmişdi. Xalqımız bir gün əvvəl ümumxalq hüzn gününü - qanlı 20 Yanvarda, 1990-cı ildə respublikamızın müstəqilliyi uğrunda qurban getmiş öz şəhid övladlarının əbədi xatirələrini bir daha yad etmişdilər.***

***Ata-ana öz oğul övladlarına Mətləb adı qoydular: Mətləb! Mətləbləri nə idi? Əlbəttə, oğullarının Vətənə layiq bir övlad kimi böyüməsi, övlad kimi onunla sevinib fərəhlənmələri, qürurlanmaları!***

Ləyaqətli oğul ata-ana istəyini gözlərində qoymadı.

Yenikənd kəndində orta məktəbə gedən, 2018-ci ildə məktəbi bitirən Mətləb 2019-cu ilin yanvar ayında həqiqi hərbi xidmətə yollandı. Həqiqi hərbi xidməti yerinə yetirdikdən sonra da Vətənə xidmət üçün orduda qaldı. Və... 2020-ci ilin oktyabr ayının 9-da erməni qəsbksrları ilə Vətən müharibəsində döyüşlərdə şəhid oldu.

Qədimdən bəri dostluğa sadiq türklər ürək qızdırdıqları ilə daha doğma olmaq üçün barmaqlarını çərtib qan çıxardar, o qanı bir-birlərinin qanına qatar, beləliklə də qan qardaşı olardılar...

Vətən müharibəmizdə yaralı döyüşçü öz həyatının xilası haqqında fikirləşmədən köməyə gələn həkimdən ondan qabaq yaralı dostuna yardım etməsini xahiş edib...

O yaralı döyüşçülər görəsən sağalıbmı? Yəqin ki, şəhidlik məqamında hər ikisi biliblərmiş: barmaqlarının qanını bir-birinə qarışdırıb qan qardaşı olmağa ehtiyac yoxdur. Uğrunda qan verdikləri torpaqda qanları bir-birinə qarışaraq onları elə qardaş edib!!!

## *ŞƏHİD ÖVLADI*



***... Bir gün Peyğəmbər (s.ə.s.) yol keçərkən gördü ki, bir küçədə uşaqlar yığışıb oynayır. Ancaq bir oğlan isə qıraqda dayanıb qəmli-qəmli oynayanlara baxır. Həzrəti Mühəmməd (s.ə.s.) uşaqdan xəbər aldı ki, bəs sən niyə yoldaşlarınla oynamırsan? Peyğəmbəri tanımayan oğlan cavab verir ki, onların ataları var, oynayırlar. O isə atasını savaşda itirib. Onda kövrəlmiş Rəsulullah ondan şəfqətlə soruşur ki, sən nəvələrim Həsənlə Hüseynə qardaş olarsanmı? Oğlan "çox istərəm" deyincə Peyğəmbər bir də soruşur ki, istərsənmi sən də mənim nəvəm olasan? Abdullah adlı oğlan "əlbəttə" deyən kimi Allahın Rəsulu çox sevinib buyurdu ki, indən belə sən də mənim nəvəmsən, indi isə tut əlimdən, gedək bizə.***

Ertəsi gün Abdullah təzə, qəşəng paltar geyib sevinə-sevinə atılıb düşür, deyirdi ki, mən peyğəmbərimizin nəvəsiyəm!

Onda uşaqlar Abdullaha qibtə etdilər. Dedilər ki, kaş bizim də atalarımız döyüşlərdə şəhid olaydılar. Sənin çatdığın şərəf bizə də nəsib olaydı.

Qafarzadə Pərviz və bacısı Gülay innən belə Azərbaycan xalqının, dövlətimizin, onun rəhbərliyinin qayğısı ilə böyüyəcəklər.

Axı, onların ataları Elnur Mirzəxan oğlu Qafarov da şəhiddir, müharibədə - torpaqlarımızın yağı düşmən, erməni işğalından azadlığı uğrunda apardığımız Vətən müharibəsində həlak olub.

Elnur 1981-ci ilin soyuq dekabrın 21-də dünyaya gəlmişdi, ilk övlad payı kimi atasına-anasına sevinc gətirmişdi.

**Əvvəlcə orta məktəb illəri, sonra sürücülük kursu, daha sonra il yarımlıq həqiqi hərbi xidmət, daha sonra 2013-cü ildən müddətdən artıq hərbi qulluq. Və, nəhayət oktyabrın 16-da ölümün şəhidlik zirvəsi!!! Qarabağ uğrunda müqəddəs savaşımızda şəhidlik!!!**

**Aydın TAĞIYEV,**
**AYB Şabran bölməsinin rəhbəri,**
**"Beşbarmaq" toplusunun**
**baş redaktoru**

# Bəşər övladının sonunu gətirən hiss: Paxıllığın yaranması, inkişafı, zərəri, cəzası, çarəsi

***20 ildir jurnalist peşəsindəyəm və ilk dəfədir insan psixologiyası ilə bağlı yazı hazırlamağa çalışıram. Bilmirəm, fikirlərimi sizə çatdırmağı bacaracağam ya yox, amma yazmaq fikrim qətidir. Hətta düşünürəm ki, bəzi insanlar bu məqalədən özünə faydalı olan nələrisə əxz edə bilər. Yəqin ki, bir çoxunuz"qarnı qurtlu" söz birləşməsindən ya istifadə etmisiniz , ya da, sizə qarşı bu ittiham səslənib. Deyəndə haqlı olduğunuzu, sizə deyiləndə isə "haqsızlıq edir" deyə düşünmüsünüz. Bəli söhbət paxıllıq hissindən gedir. Başladıq!***



## *Paxıllıq hissi necə yaranır?*

Mütəxəssislərin fikrincə, paxıllıq insana xas olan cəhətlərdən biridir. İnsan paxıl doğulmur, bu hiss sonradan yaranır. Paxıllıq insanın qəlbində uşaq vaxtından kök salır.

Nədən yaranır bu hiss?- deyə düşündükdə, aydın olur ki,paxıllıq- bir insanın başqasının hansısa bir üstünlüyünü, uğurlarını görəndə yaranan mənfi hisslərin təcəssümüdür. Bir çox insanlar özlərini ətrafdakılar ilə müqayisə edirlər. Müqayisə predmeti olan insanın, müqayisə edən insandan üstün cəhətləri ortaya çıxanda paxıllıq hissləri baş qaldırır. Bu hissə adətən gözəllik, zənginlik, sağlamlıq, istedad, ağıl, tərbiyə, əxlaq, dürüstlük və daha başqa hallar səbəb ola bilir . Psixoloq Vəfa Əkbərin fikrincə, paxıllıq insana hər tərəfdən zərbə vurur: "Paxıllıq bir adət, "xəstəlik" halını alarsa, daha təhlükəlidir. Bir sözlə, paxıllıq psixoloji və sosioloji bəladır.

Psixoloq Arzu Qurbanovanın sözlərinə görə, paxıllıq keçirən zaman insan özünü bədbəxt hiss edir. "Həyatımda hər şey pisdir" qərarına gələn insan artıq fikirləşməyə başlayır ki, onun uğuru yoxdur və heç vaxt da olmayacaq. Və ətrafındakı "uğurlulara" qarşı paxıllıq hissi baş qaldırır. Beləliklə, kiminsə malik olduğu maddi və mənəvi dəyərlərə paxıllıq insanları irəli aparmaq əvəzinə geriyə aparır. Paxıl insanlar digərlərinin uğurlarını, həyatlarını izləyərək öz enerjisini tükədir".

## *Paxıllığın növləri?*

***Məsələn, psixoloq Vəfa xanım açıqlamasının birində söyləyir ki, insanın insana paxıllığı sonda kinə və ya müsbət mənada rəqabətə çevrilə bilir. Kinə çevrilmiş paxıllıq fəlakətə, müsbət rəqabətə çevrilən paxıllıq isə tərəqqiyə səbəb olur.***

Təxminən eyni fikirləri psixoloq Leyla Namazova da təsdiqləyir. Psixoloq bu hissləri belə səciyyələndirir:" Paxıllıq iki cür ola bilər. "Ağ paxıllıq" - yəni yaxşı mənada kiməsə, nəyəsə qibtə etmək, yaxşı olana bənzəməyə çalışmaq, onun uğurlarına, qələbələrinə sevinmək. Hər zaman hamının yaxşı gününə, məhz yaxşı mənada qibtə ilə baxan insanlar var.

***"Qara paxıllıq" - paxıllığı qorxunun bir parçası da saymaq olar, çünki paxıl başqasının ondan irəli keçməsindən qorxur. Ona görə də paxıl adam çox vaxt ondan kömək umana da yardım etmək istəmir, düşünür ki, kömək etsə, sabah bu adam onu ötüb keçə bilər.***

***Paxıllıq istehza şəklində də təzahür edə bilər. İnsanlar bəzən məhz paxıllıqdan lağ edir, kimlərisə alçaldan kinayəli sözlər danışıb gülürlər.***

Paxıllıq hərdən öz havasını lağ etməklə çıxarır, başqasının sevincini burnundan gətirməyə çalışır, paxıllar adamların əsəbləri ilə oynamaqdan, ümidləri puça çıxarıb ürəkləri sındırmaqdan həzz alırlar. Paxıllıq bir qayda olaraq insanın yaxşı gününə kədərlənib, pis gününə sevinməkdən ibarət olur".

Yeri gəlmişkən, hədislərin birində deyilir: "Bir nəfər əl-Həsən əl-Bəsridən soruşur: "Mömin insan paxıllıq edə bilərmi?" O, cavabında deyir: "Yusuf peyğəmbərin qardaşlarının ona etdiklərini nə tez unutdun?! Kiməsə qarşı paxıllıq hiss etdikdə onu gizlət. Nə qədər ki, paxıllıq etdiyin adama əlinlə və ya dilinlə əziyyət verməmisən, bil ki bu hiss sənə zərər verməz".

## *İnsanın paxıl oduğunu necə bilmək olar?*

İnanıram ki, bu məqaləni oxuya-oxuya ətrafınızdakı insanların arasında "paxıl" axtarışına çıxacaqsınız. Bəlkə bir çoxunuz, həqiqətlərinizi üzünüzə deyən insanla paxıl insanı dəyişik də saldınız. Qarşınızdakı insanın hallarına diqqət edin! Daha dəqiq məlumat istəyirsinizsə psixoloq-





larımızın qeydlərini izləyin. Psixoloq Vəfa Əkbər qeyd edir ki, paxıllıq ilk öncə gözlərdən, daha sonra hərəkətlərdən və danışıqlardan bəlli olur: "Bundan pis dərd, yandırıcı od ola bilməz. Paxıl adam heç vaxt rahatlıq tapmır. Öz kədəri və başqalarının fərəhi ona dərd gətirir. Pas dəmiri yeyən kimi, paxıllıq da insanın qəlbini yeyir".

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərovanın fikrincə, : "Çox vaxt paxıllar ətrafdakılara tələ qurmaq haqqında düşünürlər. Tədricən onda özündən daha üstün olanlara qarşı nifrət hissi formalaşır. Hər cür pisliklər etməkdən çəkinmirlər. "Onlar öz həyatını qurmaq, özünü mükəmməlləşdirmək əvəzinə başqalarının həyatlarına müdaxilə edirlər.**

## *Paxılın "cəzası"*

Yeganə xanımın sözlərinə qüvvət olaraq bildirim ki, paxılı təsbit edib, üzə çıxardandan sonra onun sizin üzünüzdəki adi təbəssümə necə aqressiv münasibət göstərdiyinin şahidi olacaqsınız. "Paxıl" sizin hər bir söhbətinizdə, hərəkətinizdə, danışıq və müraciətinizdə, yerişinizdə, duruşunuzda, baxışınızda, fikirlərinizdə mütləq bir "nöqsan " tapacaq, tapan kimi də əks hücuma keçərək sizi ətrafdakıların, (iş yoldaşınızdırsa) kollektivin gözündən salamağa başlayacaq. Hövsələsizlik edib onun ittihamlarını puça çıxartmağa, ona qarşı əsəb nümayiş etdirməyə çalışmayın!Ona cavab verməyə qalxışsanız uduzacaqsınız. Əsəbləriniz korlanacaq, əsəbi vaxtda işlətdiyiniz xoşagəlməz kəlmələrə görə, sonra kimlərdənsə üzr istəmək məcburiyyətində qala bilərsiniz, onun səviyyəsinə enmək sizin reytinqinizi aşağı sala da bilər. Bunları etsəniz o sizin hərəkətlərinizdən zövq alacaq, sizi çərçivədən çıxartdığı üçün özünü xoşbəxt hiss edəcək. "Xoşbəxtlik" hissini xəstə təfəkkürlü birinin yaşamasına imkan yaratmayın! Odur ki, belə xəstələrə ancaq baxıb gülümsəmək yetər. Hə, bir də çalışın hər gördüyünüz işdə uğur qazanın, xoşbəxt olun, sevdiklərinizə sarılın!

## *Bu xəstəliyin çarəsi varmı?*

"Paxıllıq hissindən uzaq olmaq üçün insan öz mənfi cəhətləri, taleyi ilə barışmalı, öz həyatında və xasiyyətində müsbət meyilləri görməyi bacarmalıdır. Paxıllıq etməmək üçün həyatda ən kiçik uğurlara görə də sevinməyi öyrənmək lazımdır. Ətrafda baş verənlərə, kiminsə uğuruna xoş hisslərlə yanaşmaq paxıllıq hissinin keçməsinə kömək edir. Çox vaxt paxıllıq insanın özünə qarşı qəzəb hissi nin ifadəsi kimi yaranır. Kiməsə paxıllıq etmək əvəzinə öz üstündə çalışmaq, konkrat məqsədə doğru addaımlamaq daha yzxşı nəticələr verir. Daim öz üzərində işləmək bilik və təcrübəni arıtırmaq qayğısına qalmaq lazımdır. Bu halda xoş olmayan məsələlər haqında fikirləşmək və paxıllıq etmək üçün vaxt qalmayacaq"

Bu məsləhət yenə də psixologiya üzrə fəlsəfə doktoru Yeganə xanıma məxsusdur.

## *Din nə deyir?*

Din alimləri bildirir ki, paxıllıq- Uca Allahın başqasına verdiyi nemətlə razılaşmamaq deməkdir. Bu isə Uca Allahın qədərinə etiraz etmək sayılır. Paxıllıq (həsəd ) başqasına deyil, insanın özünə zərər verir. Peyğəmbər paxıllıqdan çəkindirərək demişdir: "Həsəd etməkdən çəkinin! Həqiqətən həsəd etmək savabları od odunu yandırdığı kimi yandırıb yox edir" (Əbu Davud, 4903).

Amma paxıllıqdan xilas olmağın bir neçə yolu var:

**1) Həsəd etməyin və həsəd edənin şərindən Allaha sığınmaq. Uca Allaha bu qəlb xəstəliyindən sağalmaq üçün dua etmək.**

**2) Həsəd etmək həsəd olunanadan çox həsəd edənin özünə zərər verdiyini düşünmək. Belə ki, həsəd edən daim özü sıxıntı və üzüntü içində olur. Hər dəfə həsəd etdiyi adamı gördükdə gərginlik keçirir.**

**3) Həsəd etdiyi adam üçün dua etmək. Onu hər yerdə xeyirlə yad etmək. Bu, insana ağır gəlsə də, həsədi müalicə etmək üçün ən yaxşı yoldur. Uca Allah buyurur: "Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur. Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir" (Fussilət, 34-36).**

**4) Həsəd etməyin Uca Allahın qəzəbinə səbəb olduğunu düşünmək. Paxıl adam Allahın başqasına nemət verməsinə nifrət edir və bunun qarşısının alınmasını arzulayır, beləliklə də, Allaha asilik etmiş olur.**

**Paxıl olmayanlara və paxılların obyektinə düşənlərə hər zaman "obyekt" olan birisindən bir məsləhət: Gülümsəyin! Həm də, xoşbəxtliklə gülümsəyin!**

**Araşdırdı:**
**Əntiqə Rəşid**

# DÜNYANI HEYRƏTƏ SALAN 44 GÜNLÜK MÜHARİBƏ

**(III yazı)**

**Bəlli hadisələrin axarını izlədikcə üst-üstə düşən, təkrarlanan, bəzən də törədilən cinayətlərin miqyası adamı dəhşətə gətirən məqamlarla qarşılaşırıq. Məhz həmin məqamlar faşizmin elementləridir. Özü də ötən əsrdə qalan elementləri yox. Bu gün də Ermənistan hakimiyyətinin, Ermənistan siyasətinin canında-qanında qalan elementləri. Məhz bu səbəbdəndir ki, Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımıza və dünya ictimaiyyətinə etdiyi müraciətdə birmənalı şəkildə vurğulamışdı ki, biz Ermənistan ordusunu darmadağın etdik. Bizim dəmir yumruğumuz Ermənistanı kapitulyasiyaya məcbur etdi. Biz Ermənistanı diz çökdürdük. Biz Ermənistanın faşist siyasətini məhv etdik. Dünya gördü ki, Ermənistan hakimiyyəti nə qədər rəzildi, nə qədər qorxaqdı. Onlar bizim qarşımızda diz çökürlər".**



Bəli, bax elə məsələnin mahiyyətinə bu aspektdən yanaşanda onda məlum olur ki, Azərbaycan prezidentinin, Azərbaycan siyasətinin qarşısında diz çökən təkcə Ermənistan iqtidarı, Ermənistan ordusu deyil, bu həm də Ermənistana dəstək verən, ona havadarlıq edən, onu maliyyələşdirən güclərdi. Əgər 1918-ci ildə "paytaxtsız" Ermənistanı respublika elan edən güclər bu gün onun silahlanmasına açıq-aşkar dəstək verib şərait yaradıblarsa, deməli, məntiqlə biz həm də onlarla vuruşmuşuq, onlara qalib gəlmişik.

Tarixə nəzər salsaq, görərik ki, Moskvadakı və digər xarici ölkələrdəki havadarlarına arxalanan və zaman-zaman da öz çirkin niyyətini həyata keçirməyə müvəffəq olan Ermənistan hələ ötən əsrin 40-cı illərində bu gün üçün, bügünkü işğalları üçün böyük işlər görüblər. Məhz həmin vaxt Moskvanın mərkəzində əyləşəy A.Mikoyanın təşəbbüsüylə Ermənistanda "Qarabağ hərəkatı", həmçinin "Qarabağ komitəsi" yaradılmışdı. Məhz Mikoyanın dəstəyilə hələ 1945-ci ildə Ermənistan KP MK-nın birinci katibi olmuş Q.Harutyunov Stalinə məktub yazaraq Dağlıq Qarabağın Ermənistana verilməsini xahiş etmişdi. Həmin məktubu Stalin öz dərkanarı ilə Malenkova göndərmiş və araşdırılması tapşırılmışdı. Bu məktubda erməni həyasızlığının ilk nöqtəsi də özünü ifadə etmişdi. Ermənistan kommunistlərinin rəhbəri Stalindən xahiş etmişdi ki, Şuşanın yenidən qurulması, bərpası da onlara tapşırılsın. Bax, bu tarixi faktın özünə diqqət yetirəndə həm erməni həyasızlığı, həm də erməni əliuzunluğu birmənalı şəkildə qarşımıza çıxır. Yaxşı ki, həmin məktubla bağlı o vaxt Azərbaycan kommunistlərinə rəhbərlik edən Mircəfər Bağırov öz kəskin mövqeyini ortaya qoyur. Və bildirir ki, Ermənistanın, Gürcüstanın və Dağıstanın əhalisinin əksəriyyəti azərbaycanlılardı. Onda bu əraziləri də Azərbaycana birləşdirmək lazımdır. Məhz bu konkret, həm də qətiyyətli cavab Moskvanı ermənilərin məktubunu zibil qutusuna atmağa məcbur edir.

Tarixin təkrar olunduğu barədə kifayət qədər fikirlər söyləndi. Biz də həmin təkrarın şahidlərindən biriyik. Əgər xatırlayırsınızsa, ötən əsrin 80-ci illərindən başlayaraq, ermənilər Moskvaya yenidən məktublarla müraciət etməyə başladılar. Bu müraciətlərin ünvanlanmasında bir səbəb də Ulu Öndərimizin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən kənarlaşdırılması idi. Düşmən Heydər Əliyevin işdən çıxarılmasını gözəl bir fürsət kimi qiymətləndirib Qorbaçov hakimiyyətini ələ almağa çalışırdı. Elə hadisələrin gedişi də göstərdi ki, məhz Kremlin dəstəyilə



ermənilər öz cinayətkar şəbəkələrini daha da genişləndirdilər. Burada ermənilərin zaman-zaman özləri üçün istifadə etdikləri təcrübə də onların işinə yarayırdı. Tarixi faktlardan məlumdur ki, hələ 1948-ci ilin mart ayının 10-da SSRİ Nazirlər Sovetinin qəbul etdiyi "Ermənistan SSRİ-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSRİ-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi qərar məhz ermənilərin çoxsaylı və israrlı müraciətlərinin, məktublarının, həm də Kremldəki dayaqlarının köməyilə gerçəkləşmişdi. Deməli, daşnaqların , həmçinin böyük Ermənistan xülyalı avantürist dairənin ən böyük məqsədlərindən biri Azərbaycan ərazilərinə sahib olmaq, xalqımızı öz dədə-baba torpaqlarından didərgin salmaq idi. Çox təəssüf ki, ermənilərin bu istiqamətdə atdığı addımlar 1948-1953-1988-ci illərdə ermənilərin soydaşlarımızı Ermənistan ərazisindən kütləvi köçürməsi ilk mərhələlərdə sovet hökumətini, sonuncu mərhələdə isə aşkar işğalçılığın sayəsində mümkün olmuşdu.

Törədilən cinayətlərin, zaman-zaman gerçəkləşdirilən deportasiyaların qarşısının vaxtında alınmaması, SSRİ hökumətinin bu məsələdə ermənipərəst mövqe tutması artıq 1988-ci ilin ilk aylarından başlayaraq qərbi azərbaycanlıların silahla, terrorla öz ev-eşiyindən qovulmasına başlanıldı. Özü də Moskvanın gözü qarşısında. Proses o qədər sürətlə həyata keçirilirdi ki, insanlara özlərinə aid daşınması mümkün olan əmlaklarını da götürməyə imkan verilmirdi. Qışın qarlı-şaxtalı havasında adamların isti yuvalarından qovulması, mal-mülklərinin əllərindən alınması, törədilən qətllər, xüsusilə qadınlara, qocalara, uşaqlara qarşı gerçəkləşdirilən faşist xislətli faciələrlə müşayət olunan cinayətlər beynəlxalq aləmin də diqqətini özünə çəkmirdi. Böyük dünya bunu SSRİnin daxili işi sayır və erməni faşizminə bununla dəstək vermiş olurdu. Törədilən həmin qanlı cinayətlər və gerçəkləşdirilən deportasiya ilə bağlı Azərbaycan prezidenti cənab İlham Əliyev Fransanın "France 24" telekanalının təmsilçisinin suallarını cavablandırarkən birmənalı şəkildə vurğuladı ki, "Tarixi dəyişmək mümkün deyil. Siz arxiv sənədləriylə tanış olsanız, onda bugünkü Ermənistan ərazinin hansı xalqa məxsus olduğunu özünüz də görərsiniz. Və sizə aydın olar ki, bügünkü Ermənistanın paytaxtı İrəvan xanlığına məxsusdur. Ümumiyyətlə, ermənlər bu ərazilərə köçürülüblər. Onlar digər ölkələrdən məqsədli şəkildə Azərbaycan ərazisinə gətiriliblər. Bu böyük bir siyasətin tərkib hissəsi olubdu. Hətta Dağlıq Qarabağda onların Azərbaycan ərazisinə köçürülməsinin tarixini xatırladan abidə də ucaldılmışdı. Bu gün biz başqa bir dövlətin torpağı üçün vuruşmuruq. Biz öz torpağımızı azad edirik".

**Göründüyü kimi, bizim ötən ilin sentyabr ayının 27-dən noyabr ayının 10-a kimi davam edən müharibəmiz məhz Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda idi. Bu müharibənin qələbə ilə başa çatması məhz böyük bir zamanın, böyük bir siyasətin, gərgin əməyin və polad iradənin nəticəsi oldu. Ortaya dəmir yumruq qoyuldu.**

*Əbülfət MƏDƏTOĞLU*

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə yardımı ilə**

# Gözünə gün düşən adam



*Vəliyulla Novruz*

**Elçin Hüseynbəyli keçən əsrin 80 - ci illərində ədəbiyyata gələn və öz əsərlərində torpaqlarımızın azadlığı uğrunda mübarizə aparan insanların real surətini yaradan, onların vətənpərvərliyini, zəngin daxili aləmini, yüksək mənəvi keyfiyyətlərini təbii boyalarla təsvir edən sənətkarlarımızdan biridir. Həyatda baş verən hadisələrə vaxtında müdaxilə edən yazıçı müxtəlif xarakterli insanların qarşılaşdığı problemləri önə çəkməklə, obrazların hərəkət və düşüncə tərzini inandırıcı şəkildə açıb göstərmiş, onları psixoloji təhlildən keçirərək bu günümüzün reallıqlarını doğru - dürüst əks etdirməyi bacarmışdır. Onun yaradıcılığında vətəndaş yanğısı o qədər güclüdür ki, o, öz dövrünün, zamanının hadisə və münasibətlərinə vaxtında müdaxilə edə bilmişdir. Yazıçı qələmə aldığı hər hansı bir obrazı real, inandırıcı situasiyalara salır, hər situasiya obrazın bir cəhətini açır və əsərin sonunda biz bu obrazı bütün mahiyyəti, varlığın bütün çalarları ilə görürük. Çünki ədibin böyük məhəbbətlə qələmə aldığı qəhrəmanlar bizim həyatda yaxından tanıdığımız insanlardır. Məhz buna görə də ədibin təhkiyə üslubunda yazdığı hekayələr öz orjinallığı ilə diqqəti cəlb edir. Bu baxımdan yazıçının "Gözünə gün düşür" ("Ulduz" 11.2020) hekayəsi Qarabağ mövzusunda yazılmış ən gözəl əsərlərdən biri kimi xüsusi yer tutur.**

Hekayənin əsas personajı 53 yaşlı onkoloq - həkimdir. O, ağır xəstədir. Hər gecə nisgilli yuxular görür. Onun həyatda yalnız bir arzusu var: işğal altında olan kəndlərinə gedib, orada bir "sülh ağacı" əksin və atasının məzarı yanında öz əllərilə qəbrini qazıb əbədiyyətə qovuşsun. Bu məqsədlə o, evdə bir məktub yazaraq stolun üstünə qoyur, kimsə görməsin deyə sübh tezdən evdən çıxıb yola düşür. O, axşama yaxın qəsəbəyə gəlib çatır. Qəsəbənin yaxınlığında erməni postunun olduğunu nəzərə alaraq çayxanada oturub axşamın düşməsini qərara alır. Axşam düşən kimi o, ayağa qalxıb yaxınlıqdakı çaya doğru addımlayır. Yazıçının böyük məhəbbətlə qələmə aldığı bu obraz ömrünün son günlərini yaşasa belə, öz məqsədindən əl çəkmir. Onkoloji xəstə olmasına baxmayaraq, onun qəlbi həyat eşqilə döyünür. O, öz məqsədinə çatmaq üçün hər cür ağır məhrumiyyətlərə dözərək tutduğu yolun doğruluğuna inanır. Çünki onun qəlbindəVətən sevgisi o qədər güclüdür ki, o, həyatını belə onun yolunda qurban verməyə hazırdır. Bütün bunların hamısı onun daxili aləminin saflığından, təmizliyindən irəli gəlir.

O, çayın sahilinə çatıb çantasını yerə qoyur. Oturub bir anlığa xəyala dalır. "Balıq tutduğu, futbol oynadığı" günlər yadına düşür. Sonra "çantasındakı balaca "sülh ağacı"nı çıxarıb baxdı. Hər şey qaydasındaydı. Ağacı bazardan almışdı. Satıcıya demişdi ki, ona hər iqlimə uyğunlaşan bilən yaşıl ağac növü lazımdır.

### Yaşlı və təcrübəli bağban

bu balaca ağac - kolu məsləhət bilmişdi." Bir azdan həkim ayağa durub yoluna davam edir. Bu ağır və əziyyətli yolçuluq onun ağrılarını daha da artırır. Buna dözə bilməyən həkim özü ilə götürdüyü iynələrdən birini buduna vurub yoluna davam edir: " O, iki kəndi ötmüşdü. Ancaq kəndlər yox idi. Onların kölgələri qalmışdı. Evlərin çardaqları, divarları sökülüb aparılmış, talan edilmişdi..." O, çayı tutub irəliləməkdə davam edir. Çünki bu çay onu yaşadıqları evin yanına aparıb çıxaracaqdı.

***Yazıçı öz qəhrəmanını tanış cığırlardan, döngələrdən keçirir. O, gah "Maralyan bağı" nı, "Düşker" i, "Çayağzı"nı, "Quzuqulağı dərəsi" ni keçib "Kürdü" deyilən yerin üstünə qalxır, gah da "Yalova" ya çıxıb kol - kos basmış cığırla evlərinə inamla addımlamağa başlayır. "Mahmudlu" bağı meşəyə çevrilmiş, "Kələsərlik" yox olmuşdu. O, evlərinə gəlib çatır. Onun "ürəyiuçunurdu. Doğma həyətlər ona keçmiş tarixi xatırladırdı.Həyətlərinə girdi. Çobustanları yanıb külə dönmüşdü. Evlərinin bir divarı bütov qalmışdı. Sanki onu muzey üçün saxlamışdılar. Həyəti hasarlayan piltələr sökülüb aparılmışdı. Yurd yağmalanmışdı. Qəlbindəki həyəcanı, gözlərindəki yazıqlığı, əllərindəki, dizlərindəki qəzəbi soyutmaq üçün ağladı..."***

Hekayədə təsvir olunan hadisələr, poetik fikrin istiqaməti bu obrazın bəşəri xarakter olmasına yol açır. Onun gəlişilə gözləri yolda qalmış kənd sakini kövrəlir. Evlərini, o cümlədən bütov bir kəndi dağılmış halda gördükdə onun qaysaq bağlamış yaraları qövr edir: düşdüyü ağır vəziyyəti, ürəyində qübar bağlamış dərdləri, çəkdiyi mənəvi iztirablar o qədər böyükdür ki, oxucu onun bu kədərinə biganə qala bilmir. Bir tərəfdən müharibənin vurduğu ağır yaralar digər tərəfdən qəlbi Vətən eşqilə döyünən bir insanın yurd həsrəti, torpağa bağlılığı əsərdə bütün təfərrüatı ilə təcəssüm edir.

### Yazıçının bütün varlığı ilə sevərək yaratdığı bu obraz

***özünün kamilliyi, xarakterinin bütövlüyü ilə fərqlənir. O, işğal altında olan ata - baba yurduna gedəndə dərin daxili psixoloji sarsıntılar keçirir, ancaq öz məqsədindən geri dönmür.Həyatın doğurduğu bütün çətinliklərə mərdliklə sinə gərən həkim özü ilə gətirdiyi "sülh ağacı"nı həyətdə əkməyi qərara alır. "Nəhayət, çöl darvazasının yanından dəmir parçası tapdı. Bu, mərmi qırığıydı. Həmin dəmirlə bağçanın ortasında köhnə evlərinin yerində çala qazmağa başladı. Çalayla bir xeyli əlləşdi...***

Nəhayət, çalanı qazıb qurtardı. Balaca bir çala xeyli vaxt apardı, sanki yekə bir evin özülünü qazmışdı. Tövlənin böyründəki təpəlikdən çürümüş peyin gətirib çalaya tökdü, ağacı ehmalca çantasından çıxardı, salafanını açıb köklü - köməcli və torpaqqarışıq çalaya qoydu. Bircə qalırdı çaydan su gətirmək..." Bu zaman iki əlisilahlı erməni əsgəri onu əsir alıb aparır. Ədib öz qəhrəmanını çətin sınaqlar qarşısında qoyur. "Əslində, burada anlaşılmaz bir şey yoxdur, əvvəlcədən də bunu təxmin eləmişdi…"Zastavda onu cavan bir erməni zabiti qarşılayır. Həkim gəlişinin məqsədli olduğunu bildirir və tezliklə öləcəyini söyləyir: "Mənim vaxtım azdır, ölümümə bircə gün qalıb, - dedi və şalvarının balağını yuxarı qaldırıb, şişmiş dizini göstərdi..." O, bura təkcə "sülh ağacı" əkməyə yox, həm də "ölməyə gəldiyini" söyləyir. Erməni zabiti onun dediyinə deyəsən, inanır. Müəllif hər iki obrazın dialoqunu mahir psixoloq kimi o qədər canlı və inandırıcı vermişdir ki, oxucuda buna zərrə qədər olsa da, şübhə yeri qalmır. Çünki burada həyat həqiqətlərinin reallığı, psixoloji gərginlik, obrazın daxili aləminin ən qaranlıq guşələri bütün detallarına qədər canlandırıla bilmişdir. Zabit əvvəlcə xəstəni Yerevana göndərəcəyini bildirir. Lakin onun pulu olduğunu biləndə fikrini dəyişir. Telefonla yuxarıya zəng edib, əsir düşmüş şəxsin öldüyünü bildirir. Onlar, nəhayət razılığa gəlirlər: erməni zabiti onu təpədəki qəbiristanlığa - atasının dəfn olunduğu məzarın yanına aparacaq, əvəzində xəstə ona pulun yerini söyləyəcəkdi: "Mənim istəyim öz qəbrimi əllərimlə qazmaqdır. Bu, bir etirafdır. Təkcə "sülh ağacı" ilə iş bitmir. Qoy onlar görsünlər ki, bu müharibə uzandıqca hələ çox adam özünü diri - diri basdırmağa hazır olacaq..."

Yazıçı hər şeydən öncə, müharibəni insanları ölümə sürəkləyən bəşəri bir fəlakət kimi dəyərləndirir. Çünki onun törətdiyi dağıntılar, dəhşətli faciələr gerçəkliyin məntiqi təzahürü kimi dərin fərdi sarsıntılara gətirib çıxarır. Bəşəri fəlakətlərin əks - sədası kimi özünü göstərən fərdi əzab bəzən fəlakətdən də qüvvətli olur, onu qabaqlayır və öz varlığını fərdi sarsıntının daşıyıcısı olan şəxsin ölümü ilə başa vurur.

### Bu hekayədə

həyat bütün mürəkkəbliyilə təcəssüm edir: işğal olunmuş torpaqlarımız, oda qalanmış şəhər və kəndlərimiz, dağıdılmış məscid və türbələrimiz, talan olunmuş memarlıq abidələrimiz, əcdadlarımızın uyuduğu qəbiristanlıqlar belə zəbt olunaraq erməni qəsbkarları tərəfindən yerlə - yeksan edilmişdi. Hekayənin əsas qəhrəmanı isə yazıçı təxəyyülünün məhsulu deyil, o, həyatdan götürülmüş və bizim yaxından tanıdığımız, qəlbi Vətən həsrətilə döyünən yüz minlərlə insanların ümumiləşdirilmiş bədii obrazıdır. Çünki bu obrazın taleyi bir insanın taleyindən deyil, bütöv bir nəslin, cəmiyyətin, xalqın taleyindən keçir.

***Müəllif qəhrəmanın xarakterini açmaqla onun hərəkət və düşüncə tərzinin doğurduğu əks - sədanı bütün təfərrüatı ilə göstərməyə çalışır. Obrazın düşdüyü dözülməz şərait, vəziyyətin ağırlığı, xəstəliyin törətdiyi acı fəsadlar onu çətin sınaqlar qarşısında qoyur. Ancaq o, bu sınaqlara mərdliklə dözərək, onları dəf etməyi bacarır. Həkim zabitlə "kilometrdən bir az artıq olan yolu" Allah bilir neçə saata getdilər. Artıq o, yeriyə bilmirdi: "...Cibindən bir kağız çıxardı.***

- Həyətimizdə gizlətmişəm, tövlənin yanındakı əncir ağacı dibində... Ağaca su verməyi unutma..." Zabit: "Tapmasam, bəs necə olsun?" Həkim: " Mən Hippokrat andı içmişəm. Bu isə hər şey deməkdir." - deyə cavab verir. Xəstə zabitin köməkliyilə qəbirstanlığa gəlib çatır. Ancaq qəbirstanlıqdan əsər - əlamət qalmamışdı." Qəbirstanlıq tanınmaz olmuşdu. Uçulmuşdu, bəzilərinin baş daşları çıxarılıb aparılmışdı…"

***Müəllif xəstənin düşdüyü acınacaqlı vəziyyəti, keçirdiyi daxili sarsıntıları, onun əhval - ruhiyyəsini o qədər real bir şəkildə təsvir etmişdir ki, oxucu bu obrazın qarşısında öz heyranlığını gizlədə bilmir. Biz bu əhval - ruhiyyədə insan qəlbini yandıran,onu sözsüz açıb göstərən kədər dolu bir hüzn görürük. Yazıçı həyatın ən tipik cəhətlərini ümumiləşdirərək, onu gözlər önündə sərgiləyir. O, öz kədərli təhkiyəsilə nəinki oxucunu yormur, əksinə, onu arxasınca çəkib aparmağı bacarır. Həyatda müxtəlif dünyagörüşə, psixologiyaya, düşüncə tərzinə malik olan oxucu dərin həyəcan hissi keçirir, qəhrəmanın halına ürəkdən acıyır, onun dərdlərinə şərik olur.***

Həkim "sürünə - sürünə atasının qəbrinə çatır. Qəbirin yalnız yeri qalmışdı, özü uçulmuş, "övladlarından yadigar" sözü yazılmış mərmər daşı yoxa çıxmışdı... Daha qəbir qazmaq lazım olmayacaqdı..."

Göründüyü kimi müəllif hekayənin süjet xəttini şaxələndirir, əksinə burada yığcamlığa səy edərək psixoloji dəqiqliyə və dərinliyə xüsusi diqqət yetirməklə hekayəni daha da oxunaqlı edir. O, əsərdə sözləri seçib yerli - yerində işlətdiyi üçün oxucunu yormur, onu obrazın arzu və düşüncələrilə baş - başa buraxır və ən çətin anlarda belə obrazla birlikdə hərəkət edir. O, qəhrəmanın uşaqlıq illərindən söhbət açmaqla əsəri yeni çalarlarla zənginləşdirir: "O sürüşüb çalaya düşdü... Qəbir istiydi. Həkim ağrıları hiss eləmirdi. Onun bədəni sanki ölmüşdü, amma yaddaşı diriydi. O, yaddaşını qaytarmadan ölmək istəmirdi. Uşaqlığını, cavanlığını xatırlayırdı...Gözlərinin önünə güllü - çiçəkli dağlar, məktəb illəri, quzu otardığı yerlər, çayda balıq tutmağı yadına gəlirdi. Hər şey gözəl idi... İndi bu gözəlliyin və itkinin yerimi acı bir boşluq doldururdu... Səhər açılırdı. Həkimin ürəyi və yaddaşı hələ diriydi. Ölərkən hiss elədi ki, gözlərinə gün düşür..."

### Oxucu qəhrəmanın ölümünü

dərin təəssüf hissilə qarşılayır, onun vaxtsız ölümünə ürəkdən acıyır, göz yaşlarına hakim ola bilmir...Yazıçı da bütün varlığıyla sevdiyi bu obrazın ölümünə inanmaq istəmir, sükut içində ağlayaraq "gözlərini ovuşdurur," onun ölümünə yas tutur.O eyni zamanda obrazın düşdüyü bu çətin vəziyyəti, onun ağrı və əzablarını, daxili sarsıntılarını söz və ifadələrin psixoloji təsirilə önə çəkərək onun mənəvi dünyasını ülviləşdirir. Bir maraqlı cəhəti də qeyd etmək lazımdır ki, vaxtı ilədahi rus yazıçısı Lev Tolstoy "Anna Karenina" romanını yazıb qurtardıqdan sonra otaqda yazı masası arxasında oturub öz qəhrəmanının ölümünə hönkür - hönkür ağlayırmış.

Buradakı oxşarlıq mövzu və ya hadisə oxşarlığı kimi deyil, daha dərin mənada arzu və ideyalar uğrunda mübarizənin oxşar tərkib hissəsi kimi götürülür və müxtəlif zaman və məkanlarda yaşayan insanların əks - sədası kimi özünü göstərmiş olur. Hər iki halda biz gerçəkliyin adi hallarda əks olunan paradoksallıqla qarşılaşırıq və fərdi düşüncə ictimai problemin tərkib hissəsi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, ədibin yaradıcılığında hər bir obraz yazıçı ömrünün bir parçasıdır. Çünki obrazla yazıçı arasında heç bir sədd, heç bir sərhəd yoxdur, bu obraz sənətkarın özüdür, onun varlığı və düşüncəsidir, duyğusu və hissiyatıdır.

### Hekayənin ümumi ahənginə,

ruhuna uyğun olaraq kövrək təhkiyə üsulu seçməsi yazıçının ən böyük uğuru sayıla bilər. Çünki bu üsul hekayədə dərin psixoloji effekt yaradır. Əsərdə sözlərin yaratdığı ahəng emosionallıqdan uzaq olub, məntiqi ardıcıllığa söykənərək fikrin dərinliyinə, daşıdığı məna yükünə, onun bütövlüyünə və tamlığına zəmin yaradır. Bu hekayə eyni zamanda ağır kədər və fərdi sarsıntılarla yanaşı geniş oxucu kütləsinin ürək çarpıntılarını özündə birləşdirən bəşəri bir haraydan xəbər verir.

Bu əsərdə zaman və məkan anlayışları da müxtəlif qütblərdə kəsişərək gerçəkliyin bədii inikası kimi təzahür edir. Burada cərəyan edən hadisələr obrazın düşdüyü şəraitdən asılı olaraq, daim dinamik inkişafda və hərəktdə təsvir olunmuşdur.

Zaman həmişə öz axarındadır, məkan isə zamanın tələblərinə uyğun olaraq, həyatda baş verən hadisələrin coğrafi anlamda təsfir olunduğu yerdir. Bütün bunların hamısı yazıçı təxəyyülünün zənginliyi və dəqiqliyi, obrazın həyatiliyi, onun psixologiyasının dinamikliyilə bağlı olmasındadır.

**Yazıçının uğur qazanmasının əsas səbəblərindən biri də onun seçdiyi mövzuya yaxından bələd olması, onu dərindən bilməsi, şahidi olduğu hadisələrin mahiyyətinə nüfuz etməyi bacarmasında və eyni zamanda gözəl söz düzümü olmasındadır. Müəllifin böyüklüyü və onun sənətkarlığının sirri də məhz bundadır.**

# "İndi aləm dəyib bir-birinə, hörmət yox, izzət yox"

***"O qədər insanların əlindən tutub qaldırmışam ki. Onlar yüksəliblər, məni vurmağa çalışıblar. Nədənsə bu cür olur. Amma təbii ki, qəddar insan ola bilmərəm. Mənim xarakterim belədir. Nə qədər qəddar olmaq istəsəm də, bacarmaram. Mümkün deyil. Amma axır vaxtlar insanlardan aralı düşmüşəm, çox uzaqlaşmışam. Belə düşünürəm ki, bir az uzaq qalsam, daha yaxşı olar". "Ədalət" qəzetinin qonağı müğənni Nazənin xanım Salayevadır.***

**-Çox sağ olun, Nazənin xanım. Ki, dəvətimi qəbul etdiniz. Açığı deyim ki, sizin kimi mərd, cəsur bir xanımla müsahibə etmək mənim üçün çox xoşdur. Fikirlərimi uzatmadan müsahibəyə başlamaq istəyirəm...**

-Mən də sizə təşəkkür edirəm.

**-"Fikirlərim yenə yaman qarışdı"...**

-"Duyğularım od tutub, ah alışdı". Duyğulara çox böyük hörmətlə yanaşıram. Düzünü deyim ki, duyğularla hərəkət edən insan deyiləm. Duyğularla hərəkət etsən, nələrisə əldə edə bilməzsən. Amma duyğulara çox böyük hörmət edirəm. Duyğuların təhqir olunmasına heç bir zaman icazə vermərəm. Çox vaxt duyğularla səmimiyyəti səhv salırlar. Duyğu başqa bir şeydir, səmimiyyət isə bambaşqa. Bunların ikisi də məndə olduğundan çox əziyyət çəkirəm. Duyğularıma qapanıram, səmimiyyətimə söykənirəm, bundan da çox istifadə edənlər olur.

**-Nazənin xanım, dediniz ki, səmimi insanam. Bunu sizi tanıyanlar çox gözəl bilir. Və vurğuladınız ki, bu səmimiyyətdən istifadə edənlər olur. Zərbələr almağınıza baxmayaraq siz yenə də insanlara güvənirsiniz. Niyə?**

-Səmimiyyət insanda ya olur, ya olmur. Hər dəfə özümə söz verirəm, bir daha belə olmayacam, amma alınmır. O qədər insanların əlindən tutub qaldırmışam ki. Onlar yüksəliblər, məni vurmağa çalışıblar. Nədənsə bu cür olur. Amma təbii ki, qəddar insan ola bilmərəm. Mənim xarakterim belədir. Nə qədər qəddar olmaq istəsəm də, bacarmaram. Mümkün deyil. Amma axır vaxtlar insanlardan aralı düşmüşəm, çox uzaqlaşmışam. Belə düşünürəm ki, bir az uzaq qalsam, daha yaxşı olar.

### *"Qələbə əzmində oxudum"*

**-Zərbələr aldıqca insan olur ki, yıxılır. Siz necə?**

-Mən əksinə daha da möhkəm olmuşam. O zərbələr olmasaydı, mən bu səviyyəyə gəlib çatmazdım. Zərbələr məni müdrik edib, zərbələr mənə uğur gətirib.

**-"Necə xoş xatirələrdir?" Nələrdir o xatirələr?**

-O xatirələr...Çox gözəl xatirələr var, məni yandıracaq qədər əzablı xatirələr var. Valideynlərimin vəfatı, cavan qardaşlarımın ölümü, Şəhidlərimiz, cavan-cavan oğullarımızın qazi olması, bunlar məni çox ağrıdır. Bunların hamısı həyatda yaşanmış xatirələrdir. Bunlar məni üzür. Bir tərəfdən də qürurlanıram ki, Şəhidlərimiz bizi Qarabağlı edib, Füzulili edib, Zəngilanlı edib, Şuşalı edib, Cəbrayıllı edib, Kəlbəcərli edib. Müzəffər Ordumuzun və Ali Baş Komandanımızın sayəsində torpaqlarımız azad edilib. Müharibədir. Müharibədə ölüm də olur. Allah Şəhidlərimizə rəhmət eləsin.

**-Bu yaxınlarda bir mahnı da oxudunuz-"Haydı əsgərlər". Bir az da ondan danışaq...**

-O mahnı haqqında düzünü deyəcəm. Həyat yoldaşımın qohumları Gürcüstandan zəng edib deyirdilər ki, niyə qələbəmizə sevinmirsən? Mən də söyləyirdim ki, siz nə danışırsınız, mən 44 gün ərzində onlarla ağlayıb, onlarla bir sevinmişəm. Mən hər gün Şəhid oluram, hər gün boğuluram. Mənə sual verirdilər ki, niyə mahnı oxumursan? Bu cür düşünürdülər. Sosial şəbəkələrdə də mənə yazırdılar ki, Nazənin xanım, niyə Vətənpərvər bir mahnı oxumursunuz?





Sonra Ruslan Səfəroğluna zəng vurdum və mahnı ərsəyə gəldi. Bir sözlə, qələbə əzmində bir mahnı oxudum.

**-Yenidən həyat yollarınıza boylanaq. Demisiniz ki, analıq hissini doya-doya Orxanla yaşadım...**

-Orxan mənim yaşam səbəbimdir. Orxan mənim həyatda yaşamağım üçün stimuldur. Orxan mənim üçün yeni bir həyatdır. O biri balalarım artıq böyüyüblər, öz ailələri, evləri, eşikləri var.

Hətta digər övladlarım da mənim qədər Orxanı çox istəyirlər. Orxan evimizin sonbeşiyidir. Hamımız onu çox istəyirik. Həftə sonlarında bir övladım deyir, bizə gəlsin, digəri deyir, bizə. Orxan ya bacısının evinə gedəcək, ya qardaşının. Orxan mənim həyatıma başqa cür daxil oldu. Orxan sevgidən yarandı. Allah onu mənə bir hədiyyə verdi. Allah ona dəyməsin. Allah hamının balalarını saxlasın, mənim də balalarım onların içində.

**-Bu qədər populyarlıq qazanan bir insanın əziyyətləri də olub, yəqin ki...**

-Düzünü deyəcəm, maddiyyat baxımından əziyyətlərim, çətinliyim olmayıb. Sənətə gəldiyim andan bu günə kimi yaxşı yaşamışam. Şükürlər olsun Allaha. Bu xalqdan kifayət qədər pul qazanmışam. Çox vaxt evə gec gəlmişəm, evə yorğun gəlmişəm. Kişi müğənnilərimiz bəzən mənə deyirdi ki, Nazənin, səndə nə qədər enerji var? Biz bir gün qabaq gedirik, dincəlirik, sabah toyu oxuyuruq, toydan çıxıb yenə də qalırıq, o birigün gəlirik. Amma sən özün sürüb maşını gəlirsən, özün oxuyursan, özün də sürüb gedirsən, sabahsı gün başqa bir toyda oxuyursan. Bunu necə edirsən? İnsanların sevgisindən o gücü alırdım. O gücü bu gün də alıram.

### *"Bunu hamının ayağına yazmaq olmaz"*

**-Nəyin peşimanlığını çəkirsiniz?**

-Vallah, heç nəyin peşimanlığını çəkmirəm. Nəyə görə? Deməli, Allah bunları mənim taleyimə yazım ki, bunlar da baş verib. Elə bir şey yoxdur ki, onun peşimanı olum. Allaha qurban olum, hər şeyi mənə verib. Naşükürlük olar ki, deyim, peşimanam. Ailəmdə hər bir şey öz qaydasındadır. Bircə, ona mən peşimanlıq da deməzdim, çox vaxt bir insana dəyər verirsən, o insan gözlədiyin kimi olmur. Görürsən ki, ona dəyər verməyə dəyməzmiş. Belə şeylərdə peşimanlığım olur ki, kaş əvvəldən onlara sərhəd qoyardım.

**-Deyirlər ki, şou-biznesdə dostluq yoxdur...**

-Bu düzgün fikir deyil. Şou-biznesdə elə dostlar var ki, bir-biri üçün ölümə gedər. Bunu hamının ayağına yazmaq olmaz. Təbii ki, meşə çaqqalsız olmaz. Sizin sahədə də var. Paxıllar var, gözügötürməyənlər var. Bu reallıqdır, qəbul etməliyik. Hər bir sahədə var, o cümlədən də, bizim sahədə. Ola bilsin, bizim sahədə daha çoxdur. Biz o dövrün müğənniləriyik. Bizdə heç vaxt elə şeylər olmayıb. İndi aləm dəyib bir-birinə, hörmət yox, izzət yox. Biz o hörməti qoruyub saxlayırıq, həm insanlar arasında, həm də şou-biznes nümayəndələri arasında. Sonradan gələnlər cavanlardır, onlar da zamanla püxtələşəcəklər.

**-Mənə bir sual da maraqlıdır. Güclü qadın olan Nazənin xanımın həyat sloqanı nədir?**

-Məni güclü edən ailəmdir. Həyat şüarım düzgünlükdür. Məni ayaqda saxlayan isə Orxan və ailəmdir. Orxan çox balcadır. Onunla bağlı çox arzularım var. Buna görə də güclü olmalıyam. Güclü olmalıyam ki, övladımı böyüdüb boya-başa çatdırım. İstəyirəm ki, nəvələrimin ali təhsil almasını, ailə həyatı qurmasını görüm. Bilirsiniz, məni güclü edən insanların arxamca daş atması olub. Məni bunlar güclü edib.

**-Deyir ki, pis övlad 6-cı barmaq kimidir. Kəsərsən, incidər, saxlayarsan, utanc verər. Mən sizə arzu edirəm ki, Orxan bax sizin 6-cı barmağınız olmasın.**

-Çox gözəl arzudur bu. Mən sizə təşəkkür edirəm, Rövşən. Tamaşaçıları öpüb bağrıma basıram. Məni Nazənin onlar edib. Allah tamaşaçıların başını xoşbəxt işlərlə qatsın.

**Rövşən Tahir**

## *Ebru Gündəşin pulları batdı, 75 min TL-sini qaytarmadılar*



**Ötən il qızı ilə birgə Qanlıcadan Kəmərburqaza köçən Ebru Gündəş Beykozda ev axtarmağa başlayıb.**

Adalet.az saytı Türkiyə mətbuatına istinadən xəbər verir ki, kirayə bir ev tutan Gündəş 75 min TL ödədikdən sonra qərarından imtina edib. Sənətçi ani qərar verməklə kirayə üçün ödədiyi 75 min TL-sindən də olub. Son olaraq "O səs Türkiyə"də yeni il çəkilişlərində görünən Ebru Gündəş 1 il öncə 9 yaşlı qızı ilə birgə Qanlıcadakı villasından köçmüşdü. Yolunu Kəmərburqazdan salmış, meşədə dəyəri 13 milyon TL olan villa almışdı. Müğənni orada da rahatlıq tapmayınca başqa bir ev axtarışına çıxıb.

**Bu dəfə ev almaq əvəzinə kirayə ev seçən müğənni keçən həftə Beykozda zövqünə uyğun bir ev tapıb. Aylğı 65 min TL-yə razılaşan Ebru Gündəş ilkin məbləğ olaraq 75 min TL ödəniş etdikdən sonra müqaviləyə imza atmaqdan imtina edib və kirayələdiyi evə köçməyib. İmtina edincə isə verdiyi 75 min TL-də batıb. Gündəşin ödədiyi pulu ona geri qaytarmayıblar.**

## *Sürücülük edən Samirə: "Özümə 10 manat qalır"*



**Karantin başlayandan və toy bazarı bağlandıqdan sonra bir çox məşhurlar özlərinə yeni-yeni peşələr seçdilər. Kimisi çörək bişirib satdı, kimisi gül satdı, kimisi kafe açdı. Meyxanaçı Samirə Yusifqızı isə artıq uzun müddətdir ki, taksi sürücülüyü ilə məşğul olur. O, taksi fəaliyyətindən əldə etdiyi gəlirlə bağlı verilişlərdən birində qonaq olarkən ətraflı məlumat verib:**

"Səhər saat 7-nin yarısı evdən çıxıb 12-də evə gəlirəm. Şükür olsun Allaha, şikayət eləməyim. Allaha qurban olum. Yaxşı deyərsən, yaxşı olar. Maşının icarəsini çıxarıram, bir az da yanacağa xərcləyirəm, özümə də qalır. Maşın özümün deyil. Öz maşınımı haçandır, əlimdən alıblar. Maşının aylıq pulunu ödəyə bilmədim, ona görə maşın da getdi. Hazırda sürdüyüm maşını icarəyə götürürəm. Gündəlik 25 manatdır. Belə deyim, 55-60 manat mənim gündəlik çıxarımdır. Ki, bu, mütləq olmalıdır. Ondan başqa da nə işlədim-işlədim. Elə olur, özümə 20-25 manat qalır, elə olur, 10 manat. Min bərəkət. Allah canımıza dəyməsin".

## *Afət Fərmanqızı: "Nizamidən də oxumuşam, kim mənə nə deyə bilər?"*



**"Bəzi adamlar var, orada-burada mənim adımı çəkir. Afətə deyin ki, "Nizami" ilidir, bir dənə mahnı da Nizaminin əsərlərindən oxusun".**

Adalet.az saytı xəbər verir ki, bu sözləri müğənni Afət Fərmanqızı söyləyib:

"Oxumuşam. Yaxında görəcəksiniz. Niyə oxumuram ki? Nizamidən də oxuyaram, Füzulidən də oxuyaram. Kim mənə nə deyə bilər ki? Füzulidən oxudum, kim mənə nə deyə bildi ki? Deyənin də, cavabını verdim".

Qeyd edək ki, bir neçə gün öncə Samir Xəttab Afəti tənqid edərək "facebook" hesabında bu sözləri yazmışdı: "Afətə deyin, "Nizami" ilidir, ən tanınmış əsərini götürüb məhv eləsin".

**Rövşən Tahir**

# Qışın soyuğundan və xəstəliklərindən qoruyan sulu yeməklər: DÜŞBƏRƏ

***Soyuq qış gəlib və özü ilə xeyli azar-bezar da gətirib.Tez-tez rastlaşdığımız soyuqdəymə, boğaz, burun, qulaq və digər havayla təmasda olan orqanlarımızın ağrılarını hər gün hiss etməyə başlamışıq.***

***Üstəgəl dövrün epidemiyası olan koronavirus xəstəliyindən qorunmaq üçün gündəlik tələbatlarımıza: maye qəbuluna, meyvə-tərəvəz tükətiminə, yeməyimizə diqqətlə fikir verməliyik.***

***Qış aylarında xüsusən sulu yeməklər tükətməklə həm mədə-bağırsaq sisteminizi möhkəmləndirmiş, həm də resperator xəstəliklərdən qurtulmuş olursunuz. Bakı mətbəxinə məxsus olan xəmir xörəklərindən biri də düşbərədir. O, xəstəlikdən qoruyan yeməklər sırasındadır.***

***Qışın sevimli yeməyi bu sulu yemək xəstəliklərlə mübarizə üçün mükəmməl çarədir.***

### *Bəli, bu gün menyumuzda düşbərə var*

İçlik üçün 350 qram yağlı qoyun əti, 1 orta boy soğan, 1 dolu çay qaş duz, 1/2 çay qaşığı istiot, Xəmiri üçün: 1 dolu stəkan un, yarım çay qaş duz, 1 yumurta, 50 qram su götürülür.

Hazırlanma qaydasına gəldikdə isə əti yuyub, suyunun çəkilməsini gözləyirik, sonra doğrayıb ət maşınından keçiririk.

Daha sonra soğanı xırda doğrayıb, ətə əlavə edirik. Sonra duz töküb əti yoğururuq. Ətin sümüklü hissəsini isə qazana qoyub bulyon hazırlayırıq.

Ət qaynadıqda üzərindəki köpükləri yığıb, içərisinə soğanın yarısını əlavə edirik. Sonra stəkana zəfəran əlavə edib dəmləməyə qoyuruq.

Digər qabda xəmiri hazırlamaq üçün un, duz, yumurta və su əlavə edirik.

Sonra xəmir yoğururuq və üzərini örtüb kənarda saxlayırıq. Xəmir bir az kənarda durduqdan sonra kündələrə ayırırıq və oxlov ilə açırıq. Sonra kubik formasında kəsirik. Kəsdiyimiz xəmirin içərisinə ət qoyub hər tərəfini birləşdirik. Sonra iki tərəfi aşağı doğru birləşdiririk .

Daha sonra düşbərələri blyonun suyuna əlavə edib, üzərinə zəfəranı töküb bişiririk. Düşbərə bişdikdən sonra üzərinə göyərti əlavə edib servis edirik.

### *Sizi xəstəlikdən qoruyan digər yeməklər*

Yeri gəlmişkən, Milli Kulinariya Mərkəzinin verdiyi məlumata görə, Azərbaycan mətbəxində xəmir xörəklərinin bir çoxu qışda soyuqdəymədən, rspirator xəstəliklərdən qoruyur.

Ümumiyyətlə xəmir xörəkləri deyiləndə, buğda və ya düyü unundan hazırlanan çoxçeşidli yemək növləri - xəşil, xəngəl, sülfüllü (sürhüllü), halva, əriştə aşı, əriştə istisi, umac, quymaq, qovut, qındı, düşbərə, gürzə, qaşıqxəngəli və s. nəzərdə tutulur.

***Bu yeməklər ətlə və ətsiz bişən xəmir xörəkləri (əriştə, quru və sulu xəngəl, düşbərə, xəmiraşı, gürzə, horra (hörrə), umac və şirin xəmir xörəkləri (xəşil, halva, zirətov, quymaq və s.) olmaqla təsnif olunur. Buğda unundan hazırlanan bu yeməklər, adətən, qış mövsümündə gündəlik yemək süfrəsi üçün hazırlanır. Keçmişdə bu yeməklər əhalinin əkinçiliklə məşğul olan qismi arasında daha geniş yayılmışdı.***

Azərbaycan mətbəxində xəngəlin kəsmə (buna həmçinin süzmə xəngəl də deyilir) və ya yarpaq xəngəli və qaşıqxəngəli (sulu xəngəl də deyilir) növləri geniş yayılmışdı. Qaşıqxəngəlinin bişirilməsi üçün soğan qovurması ilə (soğança) qaynayan suya nazik yayılmış xəmiri xırda romb şəklində hissələrə bölərək tökür, bişdikdən sonra üzərinə sarımsaq-qatıq əlavə edib taxta qaşıqla yeyirlər.



Xəngəl soyuqdəymə və öskürəyə tutulan şəxslər üçün daha faydalıdır. İçərisinə qara və ya qırmızı istiot əlavə edilmiş bu xörək növü güclü tərlətmə xüsusiyyətinə malikdir.

Nazik kəsilmiş xəmirdən hazırlanan yarpaq xəngəlini isə suda bişirdikdən sonra kəfkirlə süzür, dayaz sinilərə çəkərək üzərinə sarımsaq-qatıq, qurut, yağ-soğança əlavə edib yeyirlər.

Azərbaycanlılar arasında üstünə qoyulmuş xuruşdan asılı olaraq xəngəlin bir neçə növü - beçəli xəngəl, qovurmalı xəngəl, cızdaqlı xəngəl, qurutlu-soğançalı xəngəl, tikə ətli xəngəl, döymə xəngəl, kəklik xəngəli, yağlı xəngəl və s. məlumdur. Sülfüllü isə qabaqcadan tədarük edilən qaxac ətdən bişirilir və Şəki-Zaqatala, Quba-Xaçmaz, qismən də Gəncəbasar bölgəsi üçün xarakterikdir.

Sülfüllünü hazırlamaq üçün xəmirdən kiçik hissələr kəsilir, barmaqla eşildikdən sonra suda qaynadılır, süzülərək dayaz və enli sinilərə çəkilir. Xörəyin üzərinə həlim (xəmirin qaynadıldığı su), döyülmüş sarımsaq və nardaşa qatılmış məhlul tökülür, süfrə sahibinin imkanı daxilində ayrıca bişirilmiş qaxacdan 2-3 parça qoyulur. Sülfüllünün sulu sülfüllü və südlü sülfüllü növləri də vardır.

***Naxçıvan bölgəsi üçün xarakterik olan qam-qax buğda unundan bişirilir və acıtmalı xəmirdən hazırlanır.***

***Xəmiri oxlovla açır, yarpaq xəngəl kimi doğrayıb yağda qızardır, üstünə bal və ya doşab (və ya şəkər tozu) səpib yeyirlər.***

### *Azərbaycan mətbəxində*

xəmir xörəklərinin ən sadə və geniş yayılmış növlərindən biri də umacdır.

Umac öz tərkibinə görə üç növdə - adi, südlü və əvəlikli olmaqla hazırlanır.

Südlü umac istisna olmaqla digər umac növlərinə istiot və nar suyu qatılır, soyuqdəyməsi olan şəxslərə tərləmə vasitəsi kimi verilir. Daha çox soyuq qış aylarında buğda unundan bişirilən xəşil xəmir yeməklərindən biridir. Xəşil qaynar suya un əlavə edilərək və oxlovla qarışdırılaraq hazırlanır, üstünə bal və ya doşab (və ya şəkər tozu), ərinmiş yağ tökülərək yeyilir.

Əriştədən hazırlanan yeməklərin iki növü - əriştə istisi və əriştə aşı məlumdur. Əriştə istisi sulu xörək kimi bişirilir. Yağda qovrulmuş soğanın üstünə su əlavə edilir, içərisinə əriştə və maş lobya tökülərək qaynadılır. Əriştə istisi, adətən, sirkə-sarımsaq, abqora və ya nar suyu ilə yeyilir. Əriştə aşı isə qovrulmuş, qurudulmuş əriştədən, əsasən, bayram günlərində hazırlanır. Əriştə aşının tərkibinə bəzən düyü, lobya və ya paxla, bəzən əvəlik qatılır. Bəzən bu yemək qovurma ətlə bişirilir. Əriştə aşı bəzən zövqdən asılı olaraq quru balıq ilə də yeyilir.

**Gürzə xəmir və döyülmüş ətdən hazırlanır. Gürzə bişirmək üçün qoyun qiyməsinə soğan, duz və istiot qatılıb qovrulur, xəmirə bükülüb qaynar suya tökülür. Süzülüb boşqablara çəkilən gürzənin üstünə darçın səpir, sarımsaqlı-nanəli qatıqla yeyirlər.**

**Nuş olsun!**

**Əntiqə Rəşid**

## *"Real" Yoviçi icarəyə verir*

***"Real"ın hücumçusu Luka Yoviç bu qış komandanı tərk edəcək.***

***Qol.az xəbər verir ki, Madrid təmsilçisi sebiyalı futbolçunu sabiq klubu "Ayntraxta"a icarəyə göndərəcək. Keçidin tezliklə rəsmən açıqlanacağı bildirilib.***

***Qeyd edək ki, 2019-cu ildən Frankfurt klubundan 60 milyon avroya "Real"a keçən Yoviç bu müddətdə cəmi 11 oyunda start heyətdə meydana çıxıb.***

**Quba rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1997-ci il tarixli 06 nömrəli qərarı ilə Quba rayonu 1-ci Nügədi kənd sakini Abasov Zakir Ağabəy oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-134 Kod 30319018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Quba rayonu Aqrar İslahat Komissiyasının 1999-cu il 23 mart tarixli 07 saylı qərarı ilə Quba rayonu 1-ci Nügədi kənd sakini Tarverdiyeva Sabirə Nəcməddin qızının adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-1965 Kod 30319018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**"Azərşıq" ASC tərəfindən İsmayılov Mətləb Xanlar oğluna məxsus vəsiqə itdiyi üçün etibarsız sayılır.**

***

**Əhmədov Telman Əlişah oğluna məxsus 99-ZN-654 MITSUBISHIL-200 markalı avtomobilin Dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 48**
Çapa imzalanmışdır: 13.01.2021